AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№ 9 (1354), 27 fevral - 5 mart 2018-ci il* — *Qəzet 2001-ci ildən çıxır.*

# Əlvida Pxençxan, salam Pekin!

## *XXIII Qış Olimpiya Oyunlarının təntənəli bağlanış mərasimi keçirilib*



Fevralın 25-də Pxençxan-2018 Qış Olimpiya Oyunlarının təntənəli bağlanış mərasimi keçirilib.

Pxençxan Olimpiya Stadionunda keçirilən mərasimdə əvvəlcə Koreya Respublikanın bayrağı qaldırılıb və dövlət himni səsləndirilib.

Dünya musiqisi ilə Koreya milli musiqi alətlərinin vəhdətindən ibarət kompazisiyanın təqdimatından sonra Pxençan-2018 Olimpiadasında iştirak edən ölkələrin bayraqları stadiona gətirilib.

Sonra idmançıların paradı olub.

Mərasim xizək yarışları üzrə qadınlar arasında 30 km, kişilərin mübarizəsində isə 50 km məsafəyə marafon yarışlarının qaliblərinin mükafatlandırılması ilə davam edib. Qaliblərə medalları Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezienti Tomas Bax və Beynəlxalq Xizəksürmə Federasiyasının prezidenti Qik Frank Kasper təqdim ediblər.

Könüllülərə təşəkkür elan edildikdən sonra musiqi proqramı təqdim olunub. Ənənəyə uyğun olaraq Yunanıstanın bayrağı qaldırılıb və dövlət himni səsləndirilib.

Sonra Pxençxan şəhərinin meri Jea Quk Sin Olimpiya bayrağını BOK-un prezidentinə təqdim edib. Tomas Bax bayrağı 2022-ci ildə qış Olimpiya Oyunlarına ev sahibliyi edəcək Pekin şəhərinin meri Jininq Çenə təhvil verib.

Pekin-2022 Qış Olimpiya Oyunları ilə bağlı təqdimat nümayiş edilib.

Olimpiya məşəli söndürüldükdən sonra xüsusi lazer effektləri ilə şou nümayiş olunub, DJ-lərin ifasında konsert proqramı təşkil olunub. Bağlanış mərasiminə möhtəşəm atəşfəşanlıqla yekun vurulub.

Norveç millisi Pxençxan-2018 Qış Olimpiya Oyunlarının medal sıralamasında birinci olub. Bu ölkənin hesabında 14 qızıl, 14 gümüş və 11 bürünc medal var. Almaniya (14-10-7) ikinci, Kanada (11-8-10) üçüncü, ABŞ (9-8-6) dördüncü, Hollandiya (8-6-6) isə beşinci pillədə qərarlaşıb. Ümumilikdə, 30 ölkənin idmançıları medalçılar arasında yer alıblar.

*(ardı 2-ci səhifədə)*




## *XXIII Qış Olimpiya Oyunlarında medal qazanan ölkələrin yekun siyahısı*

| Adı | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. Norveç | 14 | 14 | 11 | 39 |
| 2. Almaniya | 14 | 10 | 7 | 31 |
| 3. Kanada | 11 | 8 | 10 | 29 |
| 4. ABŞ | 9 | 8 | 6 | 23 |
| 5. Hollandiya | 8 | 6 | 6 | 20 |
| 6. İsveç | 7 | 6 | 1 | 14 |
| 7. Koreya | 5 | 8 | 4 | 17 |
| 8. İsveçrə | 5 | 6 | 4 | 15 |
| 9. Fransa | 5 | 4 | 6 | 15 |
| 10. Avstriya | 5 | 3 | 6 | 14 |
| 11. Yaponiya | 4 | 5 | 4 | 13 |
| 12. İtaliya | 3 | 2 | 5 | 10 |
| 13. ROA* | 2 | 6 | 9 | 17 |
| 14. Çexiya | 2 | 2 | 3 | 7 |
| 15. Belarus | 2 | 1 | 0 | 3 |
| 16. Çin | 1 | 6 | 2 | 9 |
| 17. Slovakiya | 1 | 2 | 0 | 3 |
| 18. Finlandiya | 1 | 1 | 4 | 6 |
| 19. B.Britaniya | 1 | 0 | 4 | 5 |
| 20. Polşa | 1 | 0 | 1 | 2 |
| 21. Macarıstan | 1 | 0 | 0 | 1 |
| 21. Ukrayna | 1 | 0 | 0 | 1 |
| 23. Avstraliya | 0 | 2 | 1 | 3 |
| 24. Sloveniya | 0 | 1 | 1 | 2 |
| 25. Belçika | 0 | 1 | 0 | 1 |
| 26-27. İspaniya | 0 | 0 | 2 | 2 |
| 26-27. Yeni Zelandiya | 0 | 0 | 2 | 2 |
| 28-30. Qazaxıstan | 0 | 0 | 1 | 1 |
| 28-30. Latviya | 0 | 0 | 1 | 1 |
| 28-30. Lixtenşteyn | 0 | 0 | 1 | 1 |
| **Ümumi medal** | **103** | **102** | **102** | **307** |

* ROA - Rusiyanın Olimpiya Atletləri



## Kişi gimnastımız Rusiyada qızıl medal qazanıb



Rusiyanın Yaroslavl şəhərində batut gimnastikası üzrə Rusiya kuboku və "Rusiyanın ümidi-1" ümumrusiya yarışları keçirilib.

Batut gimnastikası üzrə Azərbaycan yığma komandası yarışlarda geniş heyətlə təmsil olunub. Gimnastlarımız batut üzərində, tamblinq cığırında, həmçinin ikili mini-batutda müxtəlif yaş qrupları üzrə medallar uğrunda mübarizə aparıblar.

Ötən il dünya yaş qrupu yarışlarında tamblinq cığırında qalib adını qazanan Mixail Malkin Yaroslavl şəhərində qızıl medala sahib olub. Yarışlar çərçivəsində təşkil edilən "Rusiya-Azərbaycan Dostluq Kuboku-2018" turnirində hakimlərdən 79,200 xal alan Mixail Malkin rusiyalı rəqiblərini geridə qoyaraq fəxri kürsünün ilk pilləsinə yüksəlib.

Növbəti medalı komandamızın aktivinə 11-12 yaşlılar arasında yarışan Bilal Qurbanov tamblinq cığırında çıxışı ilə yazdırıb. Final mərhələsində 59,800 xal toplayan gimnastımız bürünc medala layiq görülüb. Eyni yaş qrupunda çıxış edən Hüseyn Əsədullayev isə doqquzuncu olub. Bu yaş kateqoriyasında qızların yarışında Zeynəb Qasımlı beşinci, 13-17 yaşlıların mübarizəsində isə Adil Hacızadə 14-cü yerdə qərarlaşıb.

Fərdi batut proqramında finala yüksələn Hüseyn Abbasov 11-12 yaşlı gimnastlar arasında beşinci, Selcan Mahsudova isə 13-17 yaş kateqoriyasında 15-ci olub.

## *Atletimiz beynəlxalq turnirin gümüş mükafatını alıb*

Belarusun paytaxtı Minskdə atletika üzrə beynəlxalq turnir keçirilib.

Turnirdə 10 ölkədən 250-dən artıq idmançı birincilik uğrunda mübarizə aparıb. Yarışda ölkəmizi 10 atlet təmsil edib. Üç təkanla tullanma yarışlarında milli komandamızın üzvü Səid Nəcəfzadə 14 m 98 sm nəticə ilə gümüş medala sahib olub.

Qeyd edək ki, "Ümid" idman klubunun yetirməsi olan Səid Nəcəfzadə yarışa şəxsi məşqçisi Elvin Əliyevin rəhbərliyi altında hazırlaşıb.

## *Anons*

İdmançılarımızla görüş təşkil olunub

*Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib*

Pəhləvanlarımız Kiyevdən 19 medalla qayıdıblar

*Velosiped üzrə dünya çempionatına 100 gün qalıb*

**Səh. 3**

*Milli komandanın məşqçi heyətinə yeni təyinatlar olub*

Bizim olanları geri qaytaracağıq!

**Səh. 5**

Respublika yarışlarının birinci seçmə mərhələsinə start verilib

*Boksçular Bakı birinciliyində yarışıblar*

Badmintonçumuz Avropa çempionatında yarışacaq

**Səh. 6**

*Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl nümunədir*

"Qarabağ" rəqiblərindən uzaqlaşdı

**Səh. 7**

## "Böyük dəbilqə" turnirində iki medal



Almaniyanın Düsseldorf şəhərində keçirilən cüdo üzrə "Böyük dəbilqə" turnirinə yekun vurulub. Yarışda 65 ölkədən 441 cüdoçu mübarizə aparıb. Komandamız yarışda 1 gümüş və 1 bürünc medal qazanıb. 73 kq çəki dərəcəsində mübarizə aparan Azərbaycan cüdoçusu Rüstəm Orucov finala qədər Avstraliya, Tacikistan, Ermənistan və Almaniya təmsilçilərinə qalib gəlib. Həlledici görüşdə yaponiyalı Ono Şoheyə məğlub olan cüdoçumuz nüfuzlu yarışın gümüş medalına layiq görülüb.78 kq çəki dərəcəsində ölkəmizi təmsil edən İrina Kindzerska yalnız bir görüşdə uduzaraq bürünc medal qazanıb. Cüdoçumuz üçüncü yer uğrunda qarşılaşmada Bosniya və Herseqovina təmsilçisi Larisa Ceriçə qalib gəlib.

Xatırladaq ki, İrina Kindzerska 2 həftə əvvəl Parisdə keçirilən nüfuzlu yarışı da bürünc medalla başa vurub.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Bölgələrdə uşaq və gənclərin fiziki hazırlığı diqqətdə saxlanılır

**Səh. 4**









# Pxençxan-2018: Dağ xizəyi idman növünün slalom yarışlarında təmsilçimiz fərqlənə bilmədi





Cənubi Koreyanın Pxençxan şəhərinin ev sahibliyi etdiyi XXIII Qış Olimpiya Oyunlarında idmançıların medallar uğrunda mübarizəsi başa çatıb. Olimpiadada iştirak edən 92 dövlət arasında 30 ölkə medal qazanıb. Hər gün dəyişən medallar cədvəlinə isə Almaniya ilə gərgin rəqabətdən qalib çıxan Norveç başçılıq edir. Pxençxan-2018 Olimpiadasında, ümumiyyətlə, medal qazanan ölkələrin siyahısında ilk onluqda qış idman növlərinin daha güclü inkişaf etdiyi ölkələr qərarlaşıb. Bu Olimpiada da ənənəvi olaraq, rekordlarla, maraqlı hadisələrlə, dopinq qalmaqalları ilə müşayiət olunub. Lakin son nəticədə yenə də ən güclülər qalib gəlir. Həmişə olduğu kimi, idmanın dəfələrlə sınaqdan çıxan bu fəlsəfəsi bütün dünyanın diqqət mərkəzində olan Pxençxan-2018 Qış Olimpiadasının da hərarətinə təsirini göstərmişdi. Bizim ölkəmiz və idmansevərlərimiz üçün maraqla olan isə olimpiadanın proqramına daxil olan dağ xizəyi idmanının slalom növündə fevralın 22-də keçirilən yarışlar idi. Soyuq və küləkli hava şəraiti ilə müşayiət olunan slalom yarışlarında ölkəmizi 68-ci sıra nömrəsi ilə avstriyalı legionerimiz Patrik Braxner təmsil edib. Olimpiada zamanı iştirak etdiyi məşqlərdə ümidverici nəticələr göstərsə də o, rəsmi yarışda finişə çata bilməyib. Beləliklə, təmsilçimiz ilk cəhddə uğursuz çıxış etdiyindən, mükafatçıların müəyyənləşdirildiyi ikinci yürüşdə iştirak etməyib. Qeyd edək ki, legioner idmançımız Soçi-2014-də də eyni aqibətlə üzləşmişdi. Bu Olimpiadada 108 atletin qələbə uğrunda mübarizə apardığı slalom yarışının birinci cəhdində ümumilikdə, 52 idmançı finişə çatsa da, yarışda iştirak edən idmançıların yarıdan çoxu-56 dağ xizəkçisi finişə qədər gəlib çıxa bilməyib. Bu atletlər arasında isə kifayət qədər güclü, təcrübəli və böyük uğurları olanlarla yanaşı, hətta yarışların favoritlərindən biri sayılan məşhur Avstriya idmançısı Marcel Hirsşer də var idi.

Bu bir daha onu göstərir ki, idmana bir qayda olaraq, fiziki güc faktoru prizmasından baxılsa da, bəxt və şans amilini də unutmaq ədalətsizlik olardı. O gün keçirilən dağ xizəkçiliyi idman növünün slalom yarışında həm fiziki gücü, həm də bəxti və şansı yetərli olan Norveç idmançısı Andre Myhrer slalomda hamıdan güclü olduğunu sübut edərək, qızıl medal qazanıb.

Bizlər isə bu olimpiadada idmançımızın iştirakı ilə təskinlik tapır. bayrağımızın dalğalanması ilə fəxr edirik. Müasir Olimpiya Hərəkatının banisi Pyer de Kuberten demişkən: “Olimpiadada əsas qələbə yox, iştirakdır ”.

# MOK-un əməkdaşı Olimpiya Yayım Xidmətinin rəsmiləri ilə görüşmüşdür

Pxençxan-2018-də iştirak edən Azərbaycan nümayəndə heyətinin tərkibində olan Milli Olimpiya Komitəsinin (MOK) marketinq idarəsinin rəisi Mehman Kərimov Olimpiya Yayım Xidmətinin (Olympic Broadcasting Sercices) və Olimpiya Kanalının (Olympic Channel) bir sıra rəsmiləri ilə görüşüb. İlk görüş Olimpiya Yayım Xidmətinin telekommunikasiya direktoru Mario Reislə olub. Görüşdən əvvəl XXIII Qış Olimpiya Oyunlarının yayım mərkəzi və əsas xidmətləri üzrə tur təşkil edilib. Xidmətin əməkdaşları kosmik peyklər və fibro optik vasitələrlə dünyanın 160-dan artıq ölkəsində yayımlanan XXIII Qış Olimpiya Oyunlarının yayımı haqda geniş məlumat veriblər. Mehman Kərimov xidmətlərin həyata keçirildiyi əsas şöbələrin fəaliyyəti ilə yaxından tanış olub.



Azərbaycanın ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları zamanı Olimpiya Yayım Xidmətinin və Olimpiya Kanalının əhəmiyyətli rol oynadığını bildirən Mehman Kərimov göstərdikləri dəstəyə və xidmətlərə görə Mario Reisə və xidmətin bütün əməkdaşlarına minnətdarlığını bildirib. Məhz bu dəstəyin nəticəsi olaraq Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının gündəlik xəbərlər proqramı Olimpiya Kanalı vasitəsilə dünyanın bütün ölkələrinə yayımlanıb. Görüşdə tərəflər televiziya yayımı və rəqəmsal marketinq sahəsində əməkdaşlığı genişləndirmək niyyətində olduqlarını ifadə ediblər. Daha sonra 2019-cu ildə Bakının ev sahibliyi edəcəyi Avropa Yeniyetmələrin Olimpiya Festivalı və Olimpiya Oyunları çərçivəsində planlaşdırılmış bir sıra müştərək layihələr müzakirə edilib.

Növbəti görüş Olimpiya Kanalının biznes xidmətləri şöbəsinin rəhbəri Xose Dominqez, həmçinin Milli Olimpiya Komitələri və Beynəlxalq Federasiyalar üzrə baş menecer Con Palfrey ilə keçirilib. Tərəflər əsasən Olimpiya Gündəliyi 2020 sənədinin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, MOK-un marketinq fəaliyyətinin genişləndirilməsi və bu istiqamətdə görüləcək işləri müzakirə ediblər. Xose Dominqez Bakı-2017 IV İslam Həmrəyliyi Oyunları çərçivəsində Azərbaycan tərəfi ilə imzalanmış çoxtərəfli memoranduma uyğun olaraq sosial media platformalarının və digər internet resurslarının idarə olunmasında, rəqəmsal arxivləşdirmə işində, kontent yaradılmasında və bu kimi başqa sahələrdə MOK-a hər cür texniki dəstəyin göstərilməsi üçün hazır olduqlarını söyləyib. Azərbaycanın regiondakı aparıcı rolunu nəzərə alaraq, bir sıra layihələrin həyata keçirilməsində qonşu ölkələrin Milli Olimpiya Komitələri ilə birgə əməkdaşlığı da hər iki tərəf razılıqla qarşılayıb.

Qeyd edək ki, belə görüşlərin keçirilməsi qarşılıqlı əməkdaşlığın daha da möhkəmlənməsinə, Olimpiya Hərəkatının təbliği sahəsində müştərək layihələrin uğurla həyata keçirilməsinə şərait yaradır. Belə ki, növbəti görüş Olimpiya Gündəliyi 2020 sənədinin tələb və tövsiyələrinə uyğun olaraq, Olimpiya Həmrəyliyi Fondu və Beynəlxalq Olimpiya Komitəsinin Televiziya Marketinq Xidmətinin rəsmiləri ilə nəzərdə tutulub.

# Əlvida Pxençxan, salam Pekin!

## *XXIII Qış Olimpiya Oyunlarının təntənəli bağlanış mərasimi keçirilib*

*(əvvəli 1-ci səhifədə)*

Pxençxan-2018 Olimpiya Oyunlarında 92 ölkədən 2952 idmançı iştirak edib. Bu, indiyə qədər qış olimpiadalarında iştirakçıların sayına görə rekord göstəricidir. Oyunlarda ən çox idmançı ilə iştirak edən ölkə Amerika Birləşmiş Ştatları (242 atlet) olub. Azərbaycan Pxençxan-2018 Olimpiadasında dağ xizəkçiliyi yarışlarında təmsil olunub.

Olimpiadada yarışlar 13 idman qurğusunda keçirilib. Atletlər 7 idman növündə 102 dəst medal uğrunda yarışıblar. Medalların birinin çəkisi 586 qramdan artıqdır. Bu, Qış Olimpiya Oyunları tarixində çəkisinə görə ən ağır mükafatdır. XXIII Qış Olimpiya Oyunları 6 yeni ölkənin debütü ilə də əlamətdar olub. Ekvador, Eritreya, Kosovo, Malayziya, Nigeriya və Sinqapur tarixində ilk dəfə qış Olimpiya Oyunlarında iştirak ediblər.

Pxençxanda keçirilən Qış Olimpiya Oyunlarını ümumilikdə, 1 milyon 336 min 326 insan ziyarət edib. Yarışlara 1 milyon 075 min 995 bilet satılıb.











# İdmançılarımızla görüş təşkil olunub

Türkiyənin İstanbul şəhərində taekvondo üzrə klublararası Avropa çempionatında və Dubayda "Karate 1" Premyer Liqa turnirində uğurla çıxış edən idmançılarla Gənclər və İdman Nazirliyində görüş keçirilib. Tədbirdə Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, Azərbaycan Milli Karate Federasiyasının (AMKF) prezidenti Yaşar Bəşirov, birinci vitse-prezident Fərid Əsgərov, baş katib Mirhəsən Seyidov, taekvondo üzrə gənclərdən ibarət Azərbaycan millisinin baş məşqçisi Məmməd Abdullayev, böyük məşqçi Zahid Məmmədov və idmançılar iştirak ediblər. İdmançıları qazanılan nəticələrə görə təbrik edən Fərid Mansurov bildirib ki, "Karate 1" Premyer Liqa turnirində əldə olunan parlaq nailiyyət Azərbaycan idmanının sürətli inkişafını bir daha nümayiş etdirdi. Bu uğurun əldə olunmasında Azərbaycan Milli Karate Federasiyasının səmərəli fəaliyyətini xüsusi qeyd edən Fərid Mansurov qurumun strukturunda baş verən dəyişikliklərə və yeni təyinatlara görə təbriklərini çatdırıb. İdman karatesinin 2020-ci il Tokio Yay Olimpiya Oyunlarının proqramına daxil edildiyini xatırladan nazirliyin şöbə müdiri Olimpiadada Azərbaycan karateçilərinin millimizin aktivinə medallar yazdıracaqlarına əminliyini bildirib.



Taekvondoçuların İstanbuldakı Avropa çempionatında uğurlu çıxışlarını qeyd edən şöbə müdiri gənc idmançıların Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin Yay Olimpiya Oyunlarına daha çox lisenziyalar qazanacaqlarına əminliyini ifadə edib. Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov bildirib ki, əsas məqsəd idmanın zirvəsi olan Yay Olimpiya Oyunlarında uğur qazanmaqdır. O, karateçilərin qarşıdakı dünya çempionatında Tokio Olimpiadasına lisenziya qazanıb Azərbaycanı yüksək səviyyədə təmsil etməyə çalışacaqlarını qeyd edib.

AMKF-in vitse-prezidenti Fərid Əsgərov, baş katib Mirhəsən Seyidov çıxışlarında Azərbaycanda idmanın sürətli inkişafının, əldə olunan nailiyyətlərin əsasında Prezident İlham Əliyevin bu sahəyə yüksək diqqət və qayğısının dayandığını bildiriblər. Qeyd olunub ki, dövlətimizin başçısının diqqət və qayğısı, federasiya rəhbərliyi tərəfindən yaradılan şərait idmançılarımızı yeni qələbələrə ruhlandırır.

Dubay "Karate 1" Premyer Liqa turnirində 75 kq çəki dərəcəsində qızıl medal qazanan Rəfael Ağayev və bürünc mükafatçı Nuranə Əliyeva xalqımıza medal sevinci yaşatdıqlarına görə məmnunluqlarını bildiriblər. İdmançılar əsas hədəflərinin Azərbaycana Olimpiya medalı qazandırmaq olduğunu vurğulayıblar.

Taekvondo üzrə gənclərdən ibarət Azərbaycan millisinin baş məşqçisi Məmməd Abdullayev, böyük məşqçi Zahid Məmmədov çıxışlarında bu il Argentinada keçiriləcək Yeniyetmələrin Yay Olimpiya Oyunlarına daha çox lisenziyanın qazanılmasını qarşıda duran əsas hədəf olduğunu bildiriblər.

Sonda idmançılar və məşqçilər jurnalistlərin suallarını cavablandırıblar.

Xatırladaq ki, İstanbulda taekvondo üzrə klublararası Avropa çempionatında gənclərdən ibarət Azərbaycan yığmasının 17 üzvü mübarizə aparıb. Təmsilçilərimiz qitə çempionatını 4 qızıl, 3 gümüş və 4 bürünc medalla başa vurublar. Dubayda təşkil olunan "Karate 1" Premyer Liqa turnirində isə Rəfael Ağayev (75 kq) qızıl, Ayxan Mamayev (84 kq) və Nuranə Əliyeva (50 kq) isə bürünc medala sahib olublar.

# Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib

***26 fevral 2018-ci il tarixində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) akt zalında Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə ADBTİA-nın rəhbərliyi, professor-müəllim heyəti və Akademiyanın tələbələri iştirak edib.***

Tədbir iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra tədbir çərçivəsində iştirakçılara soyqırım dəhşətlərini əks etdirən "Xocalı" adlı sənədli film nümayiş olunub.

Tədbirə yekun vuran Akademiyanın rektoru Fuad Hacıyev 26 il bundan öncə Ermənistanın silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə törədilən Xocalı soyqırımı və onu yaradan tarixi səbəblər barəsində məlumat verib.

Rektor çıxışında qeyd edib ki, xalqımızın başına gətirilən ən böyük faciələrdən biri olan "Xocalı soyqırımı" insanlığa qarşı törədilən ağır cinayətlərdəndir. Bu faciə hər il beynəlxalq səviyyədə yad edilir, Ermənilərin törətdiyi soyqırımı qurbanlarının xatirəsi hər zaman əziz tutulur. Fuad Hacıyev çıxışında bildirdi ki, dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir. Xocalı soyqırımı həqiqətlərindən dünya dövlətlərinin xəbərdar olması üçün dövlət tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə aparılan "Xocalıya ədalət" beynəlxalq kampaniya çərçivəsində Xocalı soyqırımının qurbanları və fəsadları haqqında məlumatlar mütəmadi olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Bu tədbirlər nəticəsində artıq bir sıra ölkələrdə Xocalı soyqırımı tanınıb.

# Pəhləvanlarımız Kiyevdən 19 medalla qayıdıblar

Kiyevdə Ukraynanın görkəmli güləşçi və məşqçilərinin xatirəsinə həsr olunmuş sərbəst, yunan-Roma və qadın güləşi üzrə növbəti XXII beynəlxalq turnir təşkil edilib. Yarışlarda 37 ölkədən 500-ə yaxın idmançı qüvvəsini sınayıb. Artıq 22-ci dəfədir keçirilən Kiyev turniri gərgin idman mübarizəsi ilə yadda qalıb. Bunu turnirin iştirakçıları arasında Olimpiya, dünya, Avropa çempionları və eləcə də, mükafatçılarının üstünlük təşkil etməsi də sübut edir.




Kiyev turnirində Azərbaycanı sərbəst, yunan-Roma və qadın güləşi üzrə yığma komandamızın 31 üzvü təmsil edib. Qeyd edək ki, turnir aprel ayında Kaspiyskdə keçiriləcək Avropa çempionatından əvvəl güləşçilərin sınaqdan keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı. Azərbaycan yığma komandasının heyəti də kifayət qədər titullu idmançılardan təşkil olunmuşdu. Onların arasında Olimpiya və dünya çempionu Şərif Şərifov, Olimpiya mükafatçısı və 3 qat dünya çempionu, Hacı Əliyev, Olimpiya mükafatçısı və 2 qat Avropa çempionu Cəbrayıl Həsənov, dünya və Avropa çempionu Həsən Əliyev, Olimpiya mükafatçısı Sabah Şəriəti, Avropa çempionu Rafiq Hüseynov və digərləri var idi.

Azərbaycan yığmasının üzvləri Kiyev turnirini 19 (9 qızıl, 6 gümüş və 4 bürünc) medalla başa vurublar.

Bu medallardan 8-i (4 qızıl, 2 gümüş və 2 bürünc) yunan-Roma güləşi üzrə yığmamızın payına düşür.

Sərbəst güləşçilərimiz ümumilikdə, 8 (4 qızıl, 3 gümüş və 1 bürünc, medala sahib çıxıblar.

Qadın güləşçilərimiz isə turnirdə 3 (1 qızıl, 1 gümüş və 1 bürünc) medal əldə ediblər.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Bəşir İsazadə təmsil edib.

# Beynəlxalq Federasiyaya azərbaycanlı rəhbər təyin olundu

Fevralın 24-de baş ofisi Bakı şəhərində yerləşən, Beynəlxalq Avrasiya Kombat Ciu-citsu Federasiyasının İcraiyyə Komitəsinin iclası keçirilib. Tədbirdə Aqil Acalov idarə heyətinin qərarı ilə Avrasiya Kombat Ciu-citsu Federasiyasının yeni prezidenti seçilib. Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin əlbəyaxa döyüş növləri üzrə baş məşqçisi, Azərbaycan Ciu-citsu Federasiyasının vitse-prezidenti, Kombat Ciu-citsu Federasiyasının keçmiş prezidenti, Azərbaycan respublikasının əməkdar məşqçisi Rəsul Məmmədov dünya arenalarında bayrağımızı dalğalandıran idmançıların yetişdiyini, bundan sonra da bu işin qürurla davam etdiriləcəyini vurğuladı. O, yeni təyin olunan prezidenti təbrik edərək, kombat ciu-citsunun bundan sonra uğurla inkişaf etdiriləcəyini, gələcəkdə daha çox uğurların qazanılacağına inandığını bildirdi. Avrasiya Kombat Ciu-citsu Federasiyasının yeni prezidenti Aqil Acalov bildirdi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



"Ölkəmizin idman mədəniyyətini təbliğ etməyə, idmanımızın inkişafına bir azərbaycanlı olaraq öz töhfəmi verməyə çalışacağam'', - deyə o vurğuladı. Milli Ciu-citsu federasiyasının prezidenti Mirəli Seyidov isə çıxışında Beynəlxalq Avrasiya Kombat Ciu-citsu Federasiyasının heyətinə uğurlar arzulayıb. Qeyd edək ki, Aqil Acalov iqtisadiyyat üzrə fəlsəfə doktorudur, idman sahəsində təcrübəsi olan gənc kadrdır. O eyni zamanda Dünya Alpaqut Federasiyasının təsisçilərindən biri və idarə heyətinin üzvü olub. İctimai-siyasi sahələrdə də kifayət qədər xidmətləri olan Aqil Acalov bir sıra ölkədaxili və beynəlxalq idman yarışlarının təşkilatçısıdır.

# Velosiped üzrə dünya çempionatına 100 gün qalıb

Bakıda keçiriləcək velosiped idmanının BMX növü üzrə dünya çempionatının başlanmasına 100 gün qalır. İyunun 5-9-da təşkil ediləcək mötəbər yarışa hazırlıq işləri davam etdirilir.

Məlumat üçün bildirək ki, BMX velosiped idmanının ən gənc növü hesab edilir. 1970-ci illərdə Amerika Birləşmiş Ştatlarında yaranan bu idman növü getdikcə populyarlıq qazanmağa başlayıb və 1981-ci ildə Beynəlxalq BMX Federasiyası təsis edilib. BMX üzrə ilk dünya çempionatı 1982-ci ildə təşkil edilib. 1993-cü ildə federasiya Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) tərkibinə daxil olub. 2003-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin növbəti konqresində BMX idman növünün Yay Olimpiya Oyunlarının proqramına daxil edilməsi barədə qərar qəbul edilib. 2008-ci il Pekin Yay Olimpiya Oyunlarından etibarən BMX olimpiadanın zirvə yarışının tamhüquqlu üzvünə çevrilib. Hazırda ən çox tamaşaçı toplayan idman növlərindən biridir.

Azərbaycanda BMX idman növü ilə ilk əyani tanışlıq 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunlarına təsadüf edir. Ölkəmizin digər növlər kimi, velosiped yarışlarını da ən yüksək səviyyədə təşkil etdiyini görən Beynəlxalq Velosipedçilər İttifaqı 2018-ci il dünya çempionatını Azərbaycan Velosiped İdmanı Federasiyasına etibar edib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə yarışa hazırlıq işlərinə başlanılıb.

2015-ci ilin əvvəlində Bakıda ən müasir tələblərə cavab verən BMX stadionu inşa edilsə də, 2016-cı ildə UCI müvafiq qaydaları və stadionların ölçülərini dəyişdiyindən Bakı stadionu yenidən qurulub, trekin uzunluğu, eni, maneələrin sayı və döngələrin hündürlüyü artırılıb. Bu gün UCİ-nın yeni standartlarına tam cavab verən yeganə stadion məhz Bakı trekidir.

Mötəbər yarışın keçiriləcəyi BMX Trekində aparılmış yenidənqurma işlərindən sonra ötən ilin oktyabr ayında təşkil olunan Dünya Sınaq Yarışı Beynəlxalq Velosipedçilər İttifaqının rəsmi nümayəndələri tərəfindən yüksək qiymətləndirilib və arenanın dünya çempionatının qəbul etməyə hazır olduğu rəsmi məktubla təsdiqlənib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 noyabr 2017-ci il tarixli Sərəncamına əsasən, 2018-ci il iyun ayının 5-9-da təşkil olunacaq dünya çempionatı ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Bu günə qədər artıq 30-dan artıq ölkə dünya çempionatında iştirakla bağlı müraciət edib və onların sayı getdikcə artmaqdadır.

# Azərbaycanlı pilot finişə birinci çatıb

Abu-Dabidəki Yas Marina trasında Formula Körfəz Akademiyası (Formula Gulf Academy) çempionatının növbəti mərhələsi keçirilib. Bu mərhələdə mübarizə aparan həmyerlimiz Gülhüseyn Abdullayev sonuncu yarışın qalibi olub. Azərbaycanı F4 və F3 çempionatlarında layiqincə təmsil edən həmyerlimiz qış fasiləsindən daha səmərəli yararlanmaq məqsədilə Yaxın Şərq turnirində mübarizə aparıb.




Abu-Dabidə Gülhüseyn Abdullayev Formula Körfəz Akademiyası çempionatının sıralanma turunda üçüncü yeri tutub. Çempionatın formatına əsasən, iştirakçılar doqquz dövrədən ibarət üç yarışda güclərini sınayıblar. İlk yarışda sürücülər sıralanma turunun nəticələrinə uyğun, digər yarışlarda isə əvvəlki yarışın finişinin yekunlarına əsasən düzülüblər.

Birinci yarışda üçüncü yerdən start götürən həmyerlimiz qəzaya uğrayaraq mübarizəni vaxtından əvvəl dayandırıb. Ona görə də ikinci yarışda sonuncu yerdən start götürən G.Abdullayev bir-birinin ardınca gözəl ötmə manevrləri ilə rəqiblərini geridə qoyaraq finişdə üçüncü ola bilib. Sonuncu yarışa üçüncü yerdən başlayan pilotumuz bu dəfə finiş xəttini birinci keçərək Azərbaycanın bayrağını yüksəklərə qaldırıb.

# Yubiley idman tədbirləri ilə qeyd olundu

***Azərbaycan polisinin 100 illik yubileyi ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri də Daxili İşlər Naziriliyi (DİN) İdman Cəmiyyətində təşkil edilib. Cəmiyyətin təmsilçiləri qol güləşi (armrestlinq) və ağırlıq daşlarının qaldırılması üzrə qüvvələrini sınayıblar.***

Yarışa start verilməzdən əvvəl Xocalı faciəsinin 26-cı ildönümü ilə bağlı faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftexetdinova bildirib ki, Azərbaycan Respublikası bu gün öz tarixinin çox şərəfli, inkişaf və tərəqqi dövrünü yaşayır: "Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkədə idman və Olimpiya Hərəkatının inkişafına böyük təkan verib, Azərbaycanın dünyanın idman mərkəzlərindən birinə çevrilməsi istiqamətində əməli tədbirlər görüb. Həmin ənənə indi də davam etdirilir. Ümummilli liderin milli maraqlar əsasında həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Ölkə rəhbərinin bu sahəyə diqqət və qayğısı idmançıları yeni qələbələrə səsləyir".



Daha sonra DİN İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov yarışın qaydaları barədə iştirakçıları və komanda rəhbərlərini məlumatlandırıb. Əsasən dənizçilər arasında yaranan qol güləşi (armrestlinq) idman növü kimi 100 ilə yaxındır ki tanınır. İdman daşlarının qaldırılması isə vaxtı ilə dövrünün ən güclüləri hesab olunan pəhləvanlardan bu günümüzə miras qalıb. Güc, dözüm və çevikliyi müəyyən edən bu idman növü indi də orduda, xüsusi təyinatlılar və dənizçilər arasında ən çox sevilən yarışlardandır. Fiziki gücü yoxlamağın ən asan və sadə üsulu kimi tanınan bu idman növündə polislərimiz əvvəlcə nümunəvi çıxışlar ediblər.

Yarışda ümumilikdə, 10 komandadan 80 idmançı qələbə uğrunda mübarizə aparıb. Gərgin keçən yarışların nəticələrinə əsasən qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə DİN Daxili Qoşunlarının Baş İdarəsi, Baş Mühafizə İdarəsi və Əlahiddə Çevik Polis Alayının əməkdaşları qərarlaşıblar.

Qol güləşi yarışlarında müvafiq olaraq öz çəki dərəcələrində gücləri ni sınayan R.Muradov (70 kq, BMİ), E.Paşayev (75 kq, BMİ), S.Qədirov (80 kq, Bakı şəhər BPİ), R.Şirinov (85 kq, Sumqayıt ŞPİ), R.Kubərov (90 kq, DİN DQ) və Y.Şirinov (+ 90 kq, Sumqayıt ŞPİ), sol qol üzrə isə C.Abbasov (BDYPİ) yarışın baş mükafatını qazanaraq çempion olublar. Yarışlara hakimliyi Azərbaycan Qol Güləşi Federasiyasının nümayəndələri ediblər.

Ağırlıq daşlarının qaldırılmasında isə A.Allahverdiyev (70 kq, DQ), E.Dövlətov (75 kq, DQ), T.Məmmədov (80 kq, DQ), C.Musayev (85 kq, ƏÇPA), M.Hüseynov (90 kq, DQ) və E.Cahangirov (+90 kq, ƏÇPA) fərqləniblər. Yarışların idarə olunmasında polis kapitanı Əlişan Tunc iştirak edib.

Mükafatlandırma mərasimində çıxış edən DİN İC-nin İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin ildən-ilə yüksəldiyini və polis idmançılarımızın təcrübələrinin artdığını diqqətə çatdırıb.

Sonda qaliblər medallar, diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Bölgələrdə uşaq və gənclərin fiziki hazırlığı diqqətdə saxlanılır

## *Şəkidə gələcəyin prespektivli idmançıları yetişir*

***Uşaq və gənclərin idmana kütləvi axınını təşkil etmək üçün dövlətimiz tərəfindən müəyyən tədbirlər həyata keçirilir. İdman sahəsində aparılan köklü islahatlar nəticəsində bu gün idman bölmələrinə uşaq, yeniyetmə və gənclərin axını sürətlənib. Bu, şəraitlə bağlıdır. Əvvəllər idmana həvəsi olan uşaq və gənclər harda oldu və necə gəldi, bir sözlə, köhnə qurğulardan istifadə edirdilər. İndi isə ən ucqar rayonlarımızda belə müasir avadanlıqlarla təhciz olunmuş idman ocaqları onların ixtiyarına verilib. Olimpiya idman kompleksləri, sadə idman qurğuları həm idmanın inkişafı, həm kütləviliyin artırılması, həm də uşaq və gənclərin mənəvi tərbiyəsində böyük rol oynayır.***

Paytaxtla bərabər, bölgələrdə də idmanın inkişafını daim diqqətdə saxlayan, regionlarda bu sahədə görülən işlərlə bağlı yazılara öz səhifələrində geniş yer ayıran “Olimpiya dünyası” qəzeti bu sayında Azərbaycanın dilbər guşələrindən biri olan Şəki rayonun idman həyatından bəhs edir. Əməkdaşımız “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” layihəsi çərçivəsində Şəki idmanı, onun idmançıları, idman qurğuları haqqında ətraflı yazı hazırlayıb.

Şəki şəhəri Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında, dəniz səviyyəsindən 632 m yüksəklikdə yerləşir. Füsunkar təbiətə, nadir tarix-memarlıq abidələrinə, zəngin tarixi-mədəni irsə malik Şəki Azərbaycanın mühüm turizm regionlarından biridir. 2018-ci ilin statistik rəqəmlərinə əsasən, Şəki şəhərinin əhalisi 185 min 400 nəfər təşkil edir. Onlardan 68 min12 nəfəri şəhər, 117 min 388 nəfəri kənd ərazisində məskunlaşıb. Burada 86 mindən çox insan əmək fəaliyyəti ilə məşğul olur. Təhsil alanların sayı 29694, təqaüdçülərin sayı isə 25957 nəfərdir. Gənclər əhalinin 30 faizini, yeniyetmələr isə 15 faizini təşkil edir.

Şəkidə rayon rəhbərliyi tərəfindən gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün bir sıra tədbirlər təşkil olunur. Bir sözlə, şəhərdə idman və bədən tərbiyəsinin inkişafı, təbliği üçün geniş imkanlar mövcuddur. Burada Olimpiya idman kompleksi, stadion, uşaq-gənclər idman məktəbi, Təhsil Uşaq-Gənclər İdman və Şahmat məktəbi və bir sıra federasiyaların regionlar üzrə nümayəndəlikləri fəaliyyət göstərir. Şəki Şəhər Gənclər və İdman İdarəsi rayonun əsas idman qurumudur.

## 7 mindən artıq yeniyetmə və gənc idmanla məşğul olur

Şəki Şəhər Gənclər və İdman İdarəsi həm ölkənin, həm də şəhərin ictimai, mədəni və idman həyatında fəal rol oynayır. Qurum təkcə idman yarışları, gənclərlə bağlı tədbirlərdə deyil, eləcə də, Şəki ilə bağlı xüsusi mərasimlərdə də yaxından iştirak edir.

Şəkinin idman həyatı ilə ətraflı məlumat almaq üçün Şəki Şəhər Gənclər və İdman İdarəsinin rəisi Vüqar İskəndərovla görüşdük.Vüqar müəllim bizə Şəkinin idman həyatından, rəhbərlik etdiyi qurumun fəaliyyətindən, nailiyyətlərdən danışdı: “Azərbaycan inkişaf etdikcə Şəki də çiçəklənir, inkişaf edir. Bu tərəqqiyə az da olsa töhfə vermək, şəkili gənclərin və idmançıların adının müxtəlif mötəbər tribunalardan eşidilməsini, fərqlənənlər siyahısına düşməsini təmin etmək üçün daim çalışır, əlimizdən gələni əsirgəmirik. Bu işdə Gənclər və İdman Nazirliyinin, Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyini və köməyini hər zaman hiss edirik.

Şəkidə fəaliyyət göstərən təşkilat və qurumlarla mütamadi əlaqə saxlayır, birgə layihələrdə iştirak edirik. Bu isə ümumi işimizin reallaşması üçün çox faydalıdır. Şəki Şəhər Gənclər və İdman İdarəsi bundan sonra da dövlətin gənclər siyasətini uğurla davam etdirəcək, istənilən addımda dövlətin və dövlət başçımızın siyasətini dəstəkləyəcəkdir”.

Vüqar müəllim söhbət zamanı Şəkinin idman həyatında baş verən hadisələrdən də söz açdı. O bildirdi ki, 2006-cı ilə qədər şəhərdə bu sahəyə olan diqqət bugünkü kimi ürəkaçan olmayıb. “Əvvəlcə qeyd edim ki, bu vəzifəyə 2006-cı ildən etibarən təyin olunmuşam. İşimə ilk olaraq rayonumuzda hansı idman növlərinə daha çox diqqət yetirilməsinin, uşaq və gənclərin bu növlərə marağını nəzərə alaraq başladım. Sonra daha hansı idman növlərinin inkişaf etdirilməsi imkanlarını araşdırdım. Məlum oldu ki, 2006-cı ilə qədər Şəkidə əsasən, 8 idman növü fəaliyyət göstərib. Bu isə çox az idi. Biz tədricən idman növlərinin sayını artırmağa başladıq. Hazırda Şəkidə 7 mindən artıq uşaq və gənc idmanın sirlərinə yiyələnir. Ümumilikdə, 24 Olimpiya və qeyri-Olimpiya növündə məşğələlər aparılır. Təbii ki, bu uğura qısa zaman ərzində nail olmaq asan deyildi. Bunun üçün əvvəlcə müxtəlif idman federasiyaları ilə əlaqə saxladıq. Gənclər arasında idmana həvəs yaratmaq üçün növlər üzrə yarışların sayını artırdıq. Yarışların təqvimi hazırlanaraq, orta təhsil məktəblərinə və idman klublarına göndərildi. Çalışırıq ki, bu gün bizi beynəlxalq idman arenalarında təmsil edən paytaxt idmançıları arasında Şəkinin də yetirmələri olsun. Bir sözlə, bölgələrdən, kəndlərdən güclü idmançılar yetişməsini istəyirik.

Düşünürəm ki, bölgələrdə gələcəyi olan perspektivli idmançılar yetişdirmək mümkündür. Gəncləri daim diqqətdə saxlamalıyıq. Bu da regionlarda fəaliyyət göstərən gənclər və idman idarələrinin əsas iş prinsipini təşkil edir. Biz bu böşluğu doldura bilsək, legioner idmançılara ehtiyac qalmaz. Çünki legioner məsələsi həm əlavə xərc, həm də vaxt itkisi deməkdir. Regionlarımızda bu sahədə potensialı olan gənclərimiz çoxdur və onlarla düzgün istiqamətdə iş aparılsa, istədiyimiz nəticəni ala bilərik”, - deyə Vüqar İskəndərov bildirdi.











Nəhəng idman infrastrukturunun yaradılması istiqamətində görülən uğurlu işlər, bu sahədə əldə olunan nailiyyətlər Azərbaycanı nəinki regionda, həm də bütün dünyada lider mövqeyə yüksəldib. Buna dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı sayəsində nail olunub. Çox sayda Olimpiya İdman komplekslərinin, idman-sağlamlıq mərkəzlərinin tikilib istifadəyə verilməsi Azərbaycanı idman ölkələrindən biri kimi tanıdıb. Son illər Azərbaycan mötəbər beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Respublikanın müxtəlif bölgələrində Olimpiya idman kompleksləri, idman qurğuları və stadionların tikintisi davam etdirilir. Diqqət çəkən əsas məqamlardan biri də bədən tərbiyəsi və idmanın ölkəmizin bütün regionlarında kütləvi xarakter almasıdır.

## Regionun ən böyük Olimpiya idman kompleksi Şəkidə yerləşir

Regionun ən böyük Olimpiya idman komplekslərindən biri Şəki Olimpiya kompleksi 2002-ci ilin noyabrında ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb. O vaxtdan başlayaraq bu kompleksdə bir çox idman yarışları, təlim məşqləri və digər ictimai-sosial tədbirlər keçirilib. Son dövrlərdə isə ərazisi bir qədər də genişləndirilmiş kompleksdə müasir standartlar səviyyəsində yenidənqurma işləri aparılıb.

Kompleksdə yenidənqurma işlərinə 2008-ci ildən başlanılıb. Sahəsi 8 min kvadratmetr olan kompleksdə 2,2 min kvadratmetrlik böyük idman zalı yaradılılb. Kiçik idman zalının sahəsi isə 1800 kvadratmetrdir. İdman zalları gələcəkdə burada irimiqyaslı beynəlxalq və yerli əhəmiyyətli yarışların keçirilməsinə tam imkan verir. İdman və sağlamlıq üçün bütün infrastrukturun yaradıldığı Şəki Olimpiya İdman Kompleksində hər biri 800 kvadratmetr olmaqla hovuz və SPA mərkəzi, 240 kvadratmetr sahədə isə trenajor zalı yaradılıb və zəruri idman avadanlığı quraşdırılıb. Yenidənqurma işləri nəticəsində kompleksin ərazisində 1400 kvadratmetr sahəni əhatə edən akvapark yaradılıb. Bütün əyləncə növlərinin olduğu bu kompleksdə restoran və boulinq zalı da fəaliyyət göstərir. Konfrans zalı, eləcə də internet klubun fəaliyyət göstərdiyi kompleksdə sahəsi 1500 kvadratmetr olan hotel qonaqlara mədəni xidmət göstərir. Kompleksin ərazisində 8 min kvadratmetr sahəsi olan futbol meydançası da var. Ərazidəki 27 kottecdə idmançıların istirahəti üçün əlverişli şərait yaradılıb. Hotel də daxil olmaqla bu kotteclər Şəkidə təşkil olunan yarışlarda iştirak etməyə gələn idmançıların qalması və istirahəti üçün nəzərdə tutulub. Kompleksdə uşaqların da müxtəlif idman növləri ilə məşğul olmaları üçün də imkan yaradılıb. Burada balacalar üçün 380 kvadratmetrlik uşaq əyləncə mərkəzi inşa edilib. Kompleksdə yaradılan şərait bir daha təsdiq edir ki, dünyada özünün sürətli iqtisadi inkişafı ilə fərqlənən Azərbaycan, həm də nəhəng idman mərkəzinə çevrilməyi qarşıya məqsəd qoyub. Bu məqsədə nail olmaq yolunda atılan addımlar isə öz bəhrəsini verir.

Müsahibimiz söhbət zamanı kompleksin fəaliyyəti ilə bağlı da bir sıra məqamlara toxundu. O dedi: “Qeyd idim ki, ötən ildən etibarən Nazirlər Kabinetinin qərarı ilə Şəki Olimpiya İdman Kompleksi Gənclər və İdman Nazirliyi tərəfindən maliyyələşdirilir. Cənab nazirin tapşırığı ilə artıq kompleksdə Olimpiya idman növləri üzrə məşqlər ödənişsiz həyata keçirilir. Kompleksdə hazırda üzgüçülük, güləş və cüdo idman növü üzrə 3 rəsmi işçi fəaliyyət göstərir. Ümumilikdə isə kompleksdə müqavilə ilə fəaliyyət göstərən məşqçilərin sayı 21-ə çatdırılıb. Bir müddət fəaliyyətini dayandıran kompleksdə indi həyat öz axarına düşüb. Kompleks dövlətin hesabına verildikdən sonra biz buranın mövcud imkanlarından maksimum istifadə etməyə çalışırıq. Hələ burada görüləsi işlərimiz çoxdur. Kompleksin tam fəaliyyəti üçün Gənclər və İdman Nazirliyi, eləcə də idman federasiyaları ilə bir sıra danışıqlar aparırıq. Bir sıra idman yarışlarının və seminarların bu kompleksdə təşkil edilməsi ilə bağlı razılıq əldə olunub. Düşünürəm ki, 2018-ci il Şəkinin idman həyatı üçün səmərəli və uğurlu illərdən biri olacaq”.









## Beynəlxalq yarışların keçirilməsi üçün bölgələrdə də lazımi infrastruktur yaradılıb

Dövlətimiz gəncləri bədən tərbiyəsinə, idmana daha geniş cəlb etmək üçün bir sıra mühüm layihələr həyata keçirir. Ümumiyyətlə, ölkə əhalisinin sağlamlığı dövlət siyasətinin əsasını təşkil edir. Araşdırmalar göstərir ki, insanlar bədən tərbiyəsi ilə, idmanla nə qədər çox məşğul olsalar, onlar adamların sağlamlığına, həyatına zərər gətirən vərdişlərdən bir o qədər uzaq olarlar. Azərbaycan gənc və müstəqil ölkədir. Ölkəmizin bu günü, gələcəyi millətimizin, xalqımızın və xüsusən gənclərimizin fiziki sağlamlığından asılıdır.

Fiziki, mənəvi sağlamlığı təmin etmək üçün bədən tərbiyəsi xüsusi rol oynayır. Bunu həm təcrübə, həm də elmi araşdırmalar da sübut edir. Bu gün idmanda ilk addımlarını atan uşaq və yeniyetmə sabahın Olimpiya, dünya və Avropa çempionu ola bilər. Bunun üçün ölkədə heç bir maneə, heç bir problem yoxdur. Sadəcə, uşaq və gənclərdə həvəs oyatmalı və təbliğat işi geniş aparılmalıdır.

Şəkidə idmanın təbliği üçün hər bir imkan mövcuddur. İdmanın əksər növləri üzrə məşqlər təcrübəli mütəxəssilər tərəfindən həyata keçirilir. Vüqar İskəndərovla söhbət zamanı bu fikirlər öz təsdiqini tapdı: “Ölkədə bədən tərbiyəsi və idmanın inkişafı yüksək səviyyədədir. Azərbaycan artıq bir neçə dəfə beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Mən keçmiş idmançı kimi bir çox ölkələrdə olmuşam. Amma sizə bunu deyə bilərəm ki, Azərbaycanda keçirilən beynəlxalq miqyaslı yarışlar dünyanın diqqət mərkəzindədir. Bunu azərbaycanlı olduğum üçün demirəm. Biz bu və ya digər mötəbər yarışların keçirilməsində kifayət qədər böyük təcrübə əldə etmişik.

Hazırda paytaxtla yanaşı, ölkənin ayrı-ayrı şəhərlərində də bir sıra beynəlxalq idman yarışları keçirilir. Bu o deməkdir ki, bölgələrdə də həmin yarışların keçirilməsi üçün mövcud infrastruktur formalaşıb. Təklif etmişik ki, Şəki Olimpiya Kompleksində beynəlxalq yarışlar keçirilsin. Belə düşünürəm ki, kompleksin imkanları buna tamamilə imkan verir. Bir müddət əvvəl burada Rusiya ilə Azərbaycan qadın voleybolçuları arasında yarış keçirilib. Şahmat üzrə beynəlxalq turnir də məhz bizim kompleksdə təşkil edilib.

## Şəki idmançılarının uğurları gündən-günə artır

Şəki Şəhər Gənclər və İdman İdarəsinin rəisi Vüqar İskəndərov rayonda voleybol, taekvondo, karate, yunan-Roma güləşi, stolüstü tennis idman növlərinin daha çox populyar olduğunu diqqətə çatdırdı: “İki idmançımız tennis üzrə ölkənin yığma komandasına cəlb olunub. Həmçinin 12 yaşlı təmsilçimiz Ləman Abdulrəhimova iki dəfə ölkə çempionu adını qazanıb. O, buyaxınlarda İranda təşkil olunacaq beynəlxalq yarışda iştirak edəcək. Kiçikyaşlı qızlarımız da stolüstü tennis üzrə Azərbaycan çempionu adına layiq görülüblər. Şəkinin basketbol və voleybol üzrə gənclərdən ibarət komandası ölkənin güclü kollektivləri arasında yer alıb. Basketbol üzrə yığma komandanın heyətində rayondan iki təmsilçimiz yer alıb. Şəki idmançıları arasında şərq döyüş növləri üzrə dünya çempionları və beynəlxalq turnirlərin qalibləri də var. 2017-ci ildə budo üzrə keçirilən dünya kuboku yarışlarında 3 idmançımız mükafatalayiq yerləri tutub. Şəkili idmançı Məhəmməd Alxaslı budo növündə yeniyetmələr üzrə yığma komandanın üzvüdür. Şəkidə qadın futbolu da inkişaf edib. Həmin növ üzrə yeniyetmə və gənclərdən ibarət iki komandamız var. Bu gün həmin komandalardan biri ölkənin güclüləri arasında çıxış edir. Qadın futbolu üzrə yığma komandanın tərkibində isə 4 futbolçumuz təmsil olunur. Yığma komandanın kapitanı da Şəkidəndir. Qeyd edim ki, uzun müddətdir ki, fəaliyyətdən geri qalan ağırlıqqaldırma idman növü yenidən inkişaf etməyə başlayıb. Artıq 3 ildir ki, idmançılarımız bu növ üzrə yarışlarda öz sözlərini deyirlər”.

Ötən ilin yekunlarına əsasən Şəki idmançıları ölkədaxili və beynəlxalq yarışlarda ümumilikdə, 94 medal əldə ediblər. Qazanılan medallardan 33-ü qızıl, 26-sı gümüş, 35-i isə bürüncdür. Bu medallardan 28-i Olimpiya idman növlərinin payına düşüb - 8 qızıl, 10 gümüş, 10 bürünc. Qeyri-Olimpiya idman növləri üzrə keçirilən yarışlarda isə Şəki təmsilçiləri daha fəal olublar. Əldə olunan 25 qızıl, 16 gümüş və 25 bürünc medal bunu bir daha sübut edir. Şəki təmsilçilərinin 2017-ci ildə əldə etdikləri medallar onu göstərir ki, digər bölgələrdə olduğu kimi, Şəkidə də idmanın Olimpiya və qeyri-Olimpiya növlərinə xüsusi diqqət və qayğı göstərilir.

“Bu gün Şəkidə əhalinin idmana marağı artıb. Yaşlı nəsil belə sağlam olmaq üçün idmanla məşğul olur. Texnologiya əsrində yaşayırıq, uşaqların telefonlara, komputerə həvəsi daha çoxdur. Bu da onlarda bir sıra xəstəliklərin yaranmasına səbəb olur. Mən şəxsən özüm araşdırmışam ki, bu gün göz klinikalarına müraciət edən yeniyetmələrin sayı çoxalıb. Telefonlardan, texniki vasitələrdən ayrılıb, uşaqların idmanla məşğul olması onların öz sağlamlıqları üçün də vacib amillərdən biridir. Doğurdan da, bu gün Şəkidə gənclərin idmana marağı böyükdür. İdman klublarına yazılan uşaq və yeniyetmələrin sayı gündən-günə artır. Bu isə bizi sevindirməyə bilməz”, - deyə söhbətin sonunda Vüqar İskəndərov vurğuladı.

***Əliyə İlyasova***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## “Neftçi idman klubu”

### Cüdo

Avstriyanın Obervart şəhərində cüdo üzrə açıq Avropa çempionatı keçirilib. Yarışda 42 ölkəni təmsil edən 285 idmançı mübarizə aparıb. Turnirdə “Neftçi İdman Klubu”nun iki üzvü Azərbaycan cüdo yığma komandasının heyətində ölkəmiz təmsil edib. İdmançılarımızdan 66 kq çəki dərəcəsində çıxış edən Orxan Səfərov bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub. Yalnız həlledici final qarşılaşmasında məğlub olan Telman Vəliyev (73 kq) isə turniri gümüş medalla başa vurub.

### Atletika

“Neftçi İdman Klubu”nun üzvü Zəkiyyə Həsənova İstanbulda qapalı məkanlarda keçirilən atletika üzrə beynəlxalq turnirdə qələbə qazanıb. Atletimiz 60 metr məsafəyə qaçış yarışlarında 7,45 saniyə nəticə göstərərək turnirin bürünc medalına sahib çıxıb.

Qeyd edək ki, bu nəticə ilə Zəkiyyə Həsənova Azərbaycan rekordunu yeniləyib.

### Futbol

Futbol üzrə Azərbaycan Birinci divizionunun 2017-2018-ci illər mövsümünün qış fasiləsi başa çatıb. İkinci dövrə 14-cü turun oyunları ilə start götürüb. Bu turda “Qaradağ Lökbatan” Zaqatalada eyniadlı klubun qonağı olub. Oyun Zaqatala şəhər stadionunda keçirilib. İlk hissədə tərəflərin səylərinə baxmayaraq, hesab açılmayıb. Fasilədən sonra hücumların sayını artıran futbolçularımız 64-cü dəqiqədə Sabir Allahquliyevin vurduğu qolla hesabı açıblar. 74-cü dəqiqədə rəqib komandanın futbolçusu Haqverdi Həsənov hesabda tarazlığı bərpa edib - 1:1. Cəmi altı dəqiqə sonra Həbib Ağayevin yetirmələri yenidən önə keçiblər. Bu dəfə Elvin Adışirinli rəqib komandanın qapısına qol vurub. Beləliklə, oyun komandamızın 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, 14-cü turdan sonra xallarının sayını 38-ə yüksəldən “Qaradağ Lökbatan” hazırda turnir cədvəlinin lideridir.

### Boks

Respublika Boks Mərkəzində keçirilən açıq Bakı birinciliyi sona çatıb. 2004-2005-ci illər təvəllüdlü boksçular arasında təşkil olunan yarışda 40-a yaxın komandadan 245 idmançı iştirak edib.

“Neftçi İdman Klubu”nun dəri əlcək ustaları da yarışda qüvvələrini sınayıblar. Klubumuzun üzvləri turnirdə 15 medal (3 qızıl, 3 gümüş, 9 bürünc) qazanıblar. Təmsilçilərimizdən 43 kq çəki dərəcəsində mübarizə aparan Səid Abdullayev, Rəmiş Cəfərov (65 kq) və Kamal Abdullayev (+76 kq) rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

### Futtennis

“Neftçi İdman Klubu” neft, qaz və kimya sənayesi işçiləri arasında futtennis üzrə turnir keçirib. Yarışda Heydər Əliyev adına Neft Emalı Zavodu, “Bos Şelf” MMC, “Qaz İxrac” İdarəsi, Ekologiya İdarəsi, “28 May” NQÇİ və Nəqliyyat İdarəsinin komandaları mübarizə aparıb. Turnir dairəvi sistem üzrə keçirilib. İştirak etdiyi beş qaşılaşmanın dördünü qələbə ilə başa vuran və yalnız bir oyundan məğlub ayrılan Heydər Əliyev adına Neft Emalı Zavodunun komandası 12 xalla turnirin qalibi adını qazanıb. “Qaz İxrac” İdarəsi ikinci, “Bos Şelf” MMC-nin komandası isə üçüncü yeri tutub.

Turnirin qalib və mükafatçılarına “Neftçi İdman Klubu” tərəfindən diplom və xatirə hədiyyələri təqdim olunub.




*“Neftçi İdman Klubu”*
*İctimai Birliyinin*
*mətbuat xidməti*

## *Milli komandanın məşqçi heyətinə yeni təyinatlar olub*

***Azərbaycan Milli Karate Federasiyasında (AMKF) idarə heyətinin və böyüklərdən ibarət milli komandaların üzvlərinin, məşqçilərin iştirakı ilə iclas keçirilib.***

İclasda gündəlikdəki məsələlər müzakirələr olunduqdan sonra müvafiq qərarlar qəbul edilib, böyüklərdən ibarət milli komandanın məşqçilər heyətində yeni təyinatlar olub.

AMKF-in idarə heyətinin qərarı ilə Şahin Xudaverdiyev kişilərdən ibarət seçmə komandanın baş məşqçisi səlahiyyətlərini müvəqqəti icra edəcək. Qurban Tağıyev böyük məşqçi, Seymur Hüseynov və Rəşad Hüseynov isə baş məşqçinin köməkçiləri təyin olunublar. Qadınlardan ibarət milli komandanın baş məşqçisi səlahiyyətlərini yeniyetmə və gənclər üzrə baş məşqçi Anar Allahverdiyev icra edəcək.

Bu barədə qərarlar federasiya rəhbərliyinin milli komandanın məşqçi və idmançı heyəti ilə görüşündə elan olunub.

Federasiya nümayəndələri yeni təyinatlarla bağlı məşqçilər heyətini və milli komandanın üzvlərini təbrik edərək, onlara uğurlar arzulayıblar. Federasiya rəhbərliyi qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün daha səmərəli fəaliyyətin vacibliyini vurğulayıb.

Baş məşqçi vəzifəsinin icrasına başlayan Əməkdar məşqçi Şahin Xudaverdiyev göstərilən etimada görə təşəkkürünü bildirərək, yüksək nailiyyətlər qazanmaq uğrunda bundan sonra da var qüvvəsi ilə çalışacağını söyləyib. Yığıncaqda, həmçinin milli komandanın 2018-ci il ərzində keçiriləcək nüfuzlu yarışlara hazırlıq işləri, dopinqə qarşı nəzarətin gücləndirilməsi və digər məsələlər müzakirə olunub.

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi*

# Bizim olanları geri qaytaracağıq!

***“Dağlıq Qarabağ münaqişəsinin həlli bölgədə sülhün təmin edilməsi üçün birinci və başlıca şərtdir. Bu məsələ həll olunmadan bölgədə heç bir başqa məsələ öz həllini tapa bilməz”.***

***İlham Əliyev***



Əziziyəm, Qarabağ
Şəki, Şirvan, Qarabağ
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Qarabağ mövzusu hər birimiz üçün çox ağrılı mövzudur. Tarixən bizim olan, indi yağı düşmənin ayaqları altında “inləyən”, hər qarışı kövrək, həzin şikəstəyə köklənən bu diyar haqqında fikirləşəndə düşünən beynimiz donur, yazan barmaqlarımız titrəyir. Bilmirik, kimi qınayaq? Erməniləri bir millət kimi qırıb çatmaqda tərəddüd edən Əmir Teymurumu, Kürəkçay (1805), Gülüstan (1813), Türkmənçay (1828) müqavilələri ilə bütöv Azərbaycanı parçalayanlarımı, sapı özümüzdən olan baltalarımı, yoxsa unutqan millət kimi elə özümüzümü? Bu mövzu ilə bağlı o qədər suallar var ki...

### Haqq-ədalət qalib gələcək

Çox qəribədir, fevral Azərbaycan xalqının tarixinə və taleyinə faciələr ayı kimi yazılıb: 10 fevral 1828-ci il-Türkmənçay müqaviləsi ilə Azərbaycanın son parçalanma tarixi; 11 fevral, 1988-ci il ermənilərin Azərbaycana qarşı torpaq iddiasına qalxması; 25-26 fevral, 1992-ci il Xocalı soyqırımı və s.

Ürəkağrısı və təəssüf hissi ilə qəbul etməliyik ki, bizi 1988-ci ilin acı fevralından, xalqımız üçün qara günlərin başladığı tarixdən düz 30 il ayırır... Amma hələ də gözləyirik, hələ də kimlərdənsə mədəd umuruq. Bizə bizdən və Tanrıdan başqa heç kim kömək edə bilməz. 1988-ci ildə göstərdiyimiz qətiyyətsizliyin nəticəsidir ki, başımıza olmazın müsibətlər gəldi - 20 faiz torpaqlarımız işğal olundu, 1 milyon soydaşımız yurd-yuvasından didərgin düşdü, neçə-neçə mərd oğullarımız, qızlarımız şəhid oldu, 20 Yanvar, Xocalı faciəsi kimi qara hadisələr yazıldı tariximizə...

Yaxşı deyiblər, dəmiri isti-isti döyərlər, sonra gec olur. Vaxtında bu azğınların cavabı verilsəydi, Dağlıq Qarabağ bir yana qalsın, ətrafyanı 7 rayonumuz zəbt olunmazdı. Amma dünyada haqq-ədalət deyilən bir şey var. Tarixi heç kim silə bilməz. Elə təkcə Kürəkçay müqaviləsi sübut edir ki, 1805-ci ildə Rusiya imperiyası sırf Azərbaycan torpaqlarını işğal edib, bizimlə torpaq iddiasına qalxan ermənilər isə bura sonralar İrandan və Türkiyədən köçürülüb. Bu faktı düşmənin öz alimi Zaven Korkodyan da təsdiq edir: “Tarixi qədimlik təsəvvürünə görə, ermənilərin Böyük Ermənistan hesab edilən həqiqi vətəni Rusiya hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir. Dağlıq Qarabağda yaşayan ermənilərə gəlincə, onların bir hissəsi aborigen olub, xristian dinini qoruyub saxlayan qədim albanların nəslindəndir. Bir hissəsi təqib və hücumlardan qurtarmaq üçün Azərbaycan torpaqlarında sığınacaq tapan İran və Türkiyə qaçqınlarıdır (“Sovet Ermənistanının əhalisi 1831-1931” adlı kitabından. 1932).

Bir sözlə, tarixən və ədalət naminə bizim olanlar geri qaytarılmalıdır və qaytarılacaq da. Başqa cür də mümkün deyil. Haqqın-ədalətin qalib gələcəyinə, Azərbaycanın haqq səsinin eşidiləcəyinə hər birimiz ürəkdən inanırıq. Çünki güclü ordumuz, dövlətimiz və onun başında duran Ali Baş Komandan, möhtərəm Prezidentimiz var.

### Şəhid qanının üstündə düşmən ayağı gəzir

Ana yurdumuzun məcburən cəlb edildiyi haqsız və ədalətsiz savaşın növbəti dalğası məhz 1988-ci ilin fevralında başladı. Münaqişənin ilk qurbanları fevralın 22-də Ağdam-Xankəndi şose yolu ətrafında yerləşən Əsgəran qəsəbəsi yaxınlığında qətlə yetirilən iki dinc azərbaycanlı oldu. Düşmən bu müharibəyə çoxdan hazırlaşsa da, fitnələrdən xəbərsiz xalqım onun qarşısında gücsüz və köməksiz idi. Azğın düşmən çoxdan hazırladığı məkrli, xəyanətkar planını həyata keçirəndə mənim sadəlövh, hələ də erməniyə inanan xalqımın deputatı aranı sakitləşdirmək üçün yaylığını ortaya atırdı. Görəsən, biz niyə bu qədər sadəlövh və unutqan millətik?! Məncə bu suala ən gözəl cavabı da elə ermənilər özləri verirlər: “Türklərlə ermənilər arasındakı ziddiyətlərin yaranmasının əsas səbəblərindən biri də türk və Azərbaycan xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin aramsız qəddarlığıdır (Anastas Mikoyan. 22.05.1919-Leninə yazdığı məktubdan).

Biz həmin o gün ilk şəhidlərimizi vətən uğrunda fəda etdik. İlk şəhid analarının bağrı yarıldı, evinə-ocağına od düşdü. Nə yazıq ki, iki günəşimizin söndüyü ayda doğulan Mübariz İbrahimov və neçə mübarizlər də şəhid oldu bu münaqişədə. Necə deyərlər, bu xəmir çox su apardı. Ən acınacaqlısı da odur ki, minlərlə Əli, Bəxtiyar, Mübariz, Fərid kimi qəhrəman oğulların şəhid düşdüyü bu torpağı hələ də özümüzə Vətən edə bilmədik. Çox təəssüf ki, hələ də, şəhid qanının üstündə düşmən ayağı gəzir.

### ... yenə də xəyanət

Sovet İttifaqının daxilində baş verən mürəkkəb və ziddiyyətli proseslərdən istifadə edən Ermənistanın Azərbaycana qarşı ərazi iddiasına qalxmasına xəyanətdən başqa ad vermək olmazdı. Coğrafi, etnik və tarixən Azərbaycanın ərazisi olan Dağlıq Qarabağda insanların sosial-iqtisadi, mədəni inkişafı daim diqqət mərkəzində saxlanılırdı və ermənilərin narazı olmağa haqqı belə yox idi. Burada 7 dünya hökmdarı, yenilməz türk sərkərdəsi Əmir Teymurun sözləri yada düşür: “Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcəkdə məni həm alqışlayacaq, həm də lənətləyəcəklər. Əgər mən bunların kökünü kəssəm, mənə gələcəkdə lənət oxuyacaqlar. Deyəcəklər, bir milləti yer üzündən sildi. Qoy gələcəkdə görsünlər ki, bunlar necə mundar millətdir. Onda mənə rəhmət oxuyacaqlar...”

İlk şəhid verdiyimiz və bizim üçün anlaşılmaz günlərdə Ermənistan var gücü ilə etnik təmizləmə siyasəti həyata keçirərək ən qısa zamanda minlərlə azərbaycanlını öz ata yurdundan qovdu. Evsiz-eşiksiz qalan və yaşamaq hüququndan məhrum olan azərbaycanlılardan fərqli olaraq, ermənilər Azərbaycanda öz sakit həyatlarına davam edirdilər. Sumqayıt hadisələri, ardınca 20 Yanvar faciəsi erməni xəyanətinin və təxribatının nəticəsi idi. Ermənilər və havadarları o qədər həyasızlaşmışdılar ki, 1990-cı il aprelin 3-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğu barədə qərarını belə heçə saydılar.

### “Hər kəs öz vəzifəsini başa düşməlidir”

Erməni terrorçuları başladıqları xəyanətkar planı axıra çatdırmaqda israrlı idilər. Çünki onlara tutarlı cavab verilmirdi. Bizim əl-qolumuzu bağlayanlar onlara meydan verirdi. O vaxtkı Azərbaycan rəhbərliyi beynəlxalq miqyasda təbliğat aparmağı bacarmır, haqq səsini dünyaya çatdırmaqda acizlik göstərirdi. İnsanlara qarşı törədilən vəhşiliklərə, təqsirkarın və zərərçəkənin kimliyinə, onun müsəlman, xristian olmasına deyil, sadəcə, insan olmasına görə qiymət verilməli olduğu halda, dünya susurdu və indi də susmaqda davam edir.

1993-cü ildə Azərbaycan xalqının təkidi ilə hakimiyyətə gətirilən ümummilli lider Heydər Əliyev mövcud vəziyyətə nəzarət etməyə müvəffəq oldu. Heydər Əliyevin hakimiyyətə gəlməsi xəyanətkar ermənilərin Dağlıq Qarabağla bağlı ssenarisini həyata keçirməyə imkan vermədi. 1993-cü il noyabrın 2-də xalqa müraciət edən ümumilli lider baş verənləri kobud səhvlərin və xəyanətin nəticəsi kimi qiytmətləndirərək demişdir: “Azərbaycan böyük təhlükə altındadır. Lakin biz bu təhlükənin qarşısını ala bilərik, almalıyıq da. Hər kəs öz vəzifəsini başa düşməlidir”. Məhz dahi şəxsiyyət Heydər Əliyevin qətiyyəti sayəsində ermənilərin 1994-cü ildə Bişkekdə Qarabağ müharibəsi üzrə atəşkəs sənədinə qondarma “DQR”-in də adının salınması cəhdinin qarşısı alındı.

### Xocalı - silinməyən qan yaddaşımız

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən müdhiş, faciəli, tarixdə analoqu çox az olan hadisələrdən biri də Qarabağın ən qədim insan məskənlərindən biri olan Xocalıda baş vermiş soyqırımdır. Xocalı faciəsi XX əsrin, bəşəriyyətin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

Xocalı hücumunda iştirak edən 366-cı rus alayının əks-kəşfiyyat şöbəsinin rəisi polkovnik V.Savelyev Rusiya hökumətinə yazdığı “Məxfi arayışında” Dağlıq Qarabağda həyata keçirilən hərbi əməliyyatlara şərh verərək yazırdı: “Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Azərbaycanlılar məni bağışlasınlar ki, bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım məxfi arayışı həm Kremlə, həm də SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun, dedim. Biz rusların zabit şərəfi görün, necə ləkələndi”. Təəssüf ki, bütün zamanlarda Azərbaycan xalqına qarşı törədilmiş soyqırımların ssenari müəllifi və baş rolun ifaçısı Rusiya və onun ordusu olmuşdur.

Xocalı qırğınının şahidi fransız jurnalisti Jan İv Yunet isə yazırdı: “... Əsirlər var. Lakin artıq yaşamağa yararlı deyillər. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasına qoyub qırır, cığırdıqca rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olub ölür. Biz növbəti kəndi zəbt edəndə bir ermənin diri uşağı götürüb iki böldüyünü görmüşəm. Sonra bədənin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al qanına bulaşmış qadın dəli olub gülməyə başladı”.

### Ermənistana dəyən sillə

Azərbaycan 2016-cı il aprel döyüşləri ilə Ermənistana ciddi xəbərdarlıq etdi. Ermənistana sillə kimi dəyən bu məğlubiyyət onun hakimiyyətini nüfuzdan saldı. Proseslərin gedişi Ermənistanın Qarabağı əlində saxlaya bilmədiyini, müdafiə gücünün zəiflədiyini və eləcə də, Azərbaycanın münaqişənun dondurulması ilə barışmadığını göstərdi. Ermənilər sülhdə maraqlı deyillər. Bunu XX əsrin əvvəllərində Anadolu və Azərbaycan türklərinə qarşı hərbi cinayətlər törətmiş Qaregin Njdenin (Qaregin ter-Arutyunyan) dostu Maykl Arlenə yazdığı açıq məktub da sübut edir: “Sülh şəraitini normal adlandırmaq olmaz. Şərqdə hökm sürən sülh bizim tədricən məhv olmağımızdır...”. Həmin məktubun yazıldığı tarixdən 100 ildən artıq vaxt keçir və heç nə dəyişməyib...

Dağlıq Qarabağ münaqişəsi bu gün regional təhlükəsizliyə və inteqrasiya proseslərinə mane olan əsas geosiyasi münaqişədir. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini və daha 7 ətraf rayonu işğal edən Ermənistan hakimiyyəti işğalçılıq siyasətinin əsas hədəfinə - Dağlıq Qarabağın dünya birliyi tərəfindən öz əraziləri kimi tanınmasına nail ola bilməyib. Əksinə, dünyadan təcrid olunmuş vəziyyətdə qalan və bu ərazilərdə yaşayan 80 minə yaxın Azərbaycan ermənisi faktiki olaraq rəsmi Yerevanın girovuna çevrilib. Faktlar sübut edir ki, Qarabağ və Azərbaycanın digər işğal edilmiş bölgələrində süni məskunlaşdırılan ermənilərin geriyə köçü başlayıb.

Xalqımız əmindir ki, Azərbaycan dövlətinin mənafeyi və ərazi bütövlüyü uğrunda mübarizə aparan Prezident və Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində şəhid qanına boyanan əzəli və əbədi torpaqlarımız işğaldan azad ediləcək, düşmənsə layiqli cavabını alacaqdır.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

Ağırlıqqaldırma



## Respublika yarışlarının birinci seçmə mərhələsinə start verilib

Fevralın 24-də Azərbaycanın bütün bölgələrini əhatə edən ağırlıqqaldırma üzrə respublika yarışlarının birinci seçmə mərhələsi start götürüb. Martın 4-dək davam edəcək yarışların əsas məqsədi regionlarda atletlərin hazırlıq vəziyyətinin yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsi, ağır atletika idman növünün təbliği, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsidir.

Yarışlar Xırdalan, Lənkəran və Samux şəhərlərində keçirilir. Xırdalanda fevralın 24-25-də keçirilən yarışlarda Sumqayıt, Xırdalan, Qobustan, Şamaxı, İsmayıllı və Bakıdan olan atletlər mübarizə aparıblar. Fevralın 28-dən martın 1-dək Lənkəranda Cəlilabad, Neftçala, Lənkəran, Lerik və Astaranı, martın 3-4-də isə Samuxda Goranboy, Gəncə, Samux, Qazax, Şəki və Qaxı təmsil edən atletlər körpücük üzərinə çıxacaqlar.

Mərhələ yarışlarında 2000-2006-cı il və daha böyük təvəllüdlü kişilər və qadınlar, müvafiq yaş qruplarında mübarizə aparırlar. Şəxsi xarakter daşıyan yarışların qalibləri sinkleyr cədvəli üzrə müəyyən ediləcək.

Redaksiyamızın poçtundan

## Sumqayıt kubokunun sərrastları müəyyənləşdi

Fevralın 23-də Paralimpiya İdman Kompleksində 26 fevral - Xocalı Soyqırımı Gününə həsr olunmuş pnevmatik silahdan güllə atıcılığı üzrə Sumqayıt kuboku keçirilib. Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Baş İdarəsinin Bədən Tərbiyəsi və İdman sektorunun müdiri Vahid Abdullayev ölkəmizdə idmanın inkişafından danışıb. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü işlərin sayəsində ölkəmizin hərtərəfli və dinamik inkişafı, ictimai-siyasi sabitlik, mühüm beynəlxalq tədbirlərin keçirilməsində əldə olunan geniş təcrübə, müasir idman infrastrukturunun yaradılması, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi uğurlardan bəhs edib. “Xalqımızın əbədi yaddaşından silinməyən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri tərəfindən törədilmiş Xocalı soyqırımı və erməni məkrli siyasətinin qanlı cinayətləri yaddaşımızdan heç vaxt çıxmayacaq. Çünki Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırım deyil, bütöv bəşəriyyətə qarşı yönəldilən qanlı cinayətdir. Bu kütləvi qırğında yüzlərlə insan vəhşicəsinə qətlə yetirilmiş, yandırılmış və girov götürülmüşdür. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq, hüquqi-siyasi qiymət verilmiş və 1994-cü ildə ümummilli liderin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi qəbul etmişdir”, - deyə Vahid Abdullayev bildirib.



Yarışda şəhərin ali, orta ixtisas məktəbləri və peşə liseyləri olmaqla ümumilikdə, 7 komanda qalib adı uğrunda mübarizə aparıb. Hər komandanın tərkibi 4 oğlan, 1 qızdan ibarət olub. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda 3 nömrəli Sumqayıt Peşə Liseyinin komandası 237 xala birinci yerə sahib çıxıb. Sumqayıt Dövlət Universitetinin komandası 212 xalla ikinci, Sumqayıt Dövlət Texniki Kollecinin komandası isə 193 xalla üçüncü yeri tutub. Yarışın qalib və mükafatçıları Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərman, hədiyyə və kubokları ilə təltif olunublar.

Boks

## Boksçular Bakı birinciliyində yarışıblar

Respublika Boks Mərkəzində keçirilən boks üzrə açıq Bakı birinciliyi başa çatıb. 2004-2005-ci illər təvəllüdlü boksçular arasında təşkil olunan yarışda 40-a yaxın komandadan 245 idmançı qüvvəsini sınayıb. “Neftçi İdman Klubu”nun dəri əlcək ustaları gərgin mübarizə şəraitində keçən yarışda 15 medala (3 qızıl, 3 gümüş, 9 bürünc) sahib olublar.

Birincilikdə klubun yetirmələrindən Səid Abdullayev (43 kq), Rəmiş Cəfərov (65 kq) və Kamal Abdullayev (76 kq-dan yuxarı) bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.



Veteran gimnast - 85

## İdmana sadiq qalan ictimai xadim- Faiq Rəcəbov

85 illik yubileyini qeyd edən Faiq Rəcəbov idman və ictimai fəaliyyəti paralel aparmağı bacaran insanlardandır. Uzun müddət rəhbər vəzifələrdə çalışan Faiq müəllim idmana həmişə vaxt ayırıb, onu daim həyatının bir hissəsi bilib. Fəxrimiz, dünyanın tanınmış şahmatçılarından biri olan beynəlxalq dərəcəli qrossmeyster Teymur Rəcəbovun babası olan Faiq Rəcəbov özünü bu gün də çox gümrah hiss edir.



Faiq Rəcəbov 1933-cü il fevralın 19-da Bakı şəhərində anadan olub. O, Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft və qaz yataqlarının istismarı fakültəsini bitirib, mühəndis ixtisasına yiyələnib. Eyni zamanda, o, 1961-ci ildə Moskvada Ümumittifaq Xarici Ticarət Akademiyasının beynəlxalq iqtisadiyyatı fakültəsində təhsil alıb.

Faiq Rəcəbov uzun müddət diplomatiya və xarici ticarət əlaqələri üzrə Suriya, Livan və Küveytdə SSRİ səfirliklərində ticarət müşaviri vəzifəsində işləyib. O, 1980-1990-cı illərdə Azərbayca Nazirlər Kabinetində və Prezident Aparatında şöbə müdiri vəzifəsində çalışıb.

Onu uşaq yaşlarında ilk dəfə gimnastika bölməsinə xalası qızı, Azərbaycan qadınları arasında ilk SSRİ idman ustası, görkəmli gimnastımız Züleyxa Hacıyeva gətirib. Onlar idman gimnastikasının sirlərinə “Dinamo” İdman Cəmiyyətində yiyələniblər.

Faiq müəllim 1948-1951-ci illərdə yeniyetmələr arasında Bakı və Azərbaycan birinciliklərinin qalibi olub. Tələbəlik illərində (1950-1955) ölkənin ali məktəb tələbələri arasında keçirilən spartakiada yarışlarının çempionu olan veteran gimnastımız 1954-1955-ci illərdə SSRİ-nin texniki ali məktəbləri arasında keçirilən yarışlarda da mükafatalayiq yerlər tutub. 1951-1957-ci illərdə idman gimnastikası üzrə Bakı və Azərbaycan çempionatlarında da mükafatçılar sıyahısına düşməyi bacarıb. O, 1957-ci ildə SSRİ Gənclərinin Ümumdünya Festivalında Azərbaycanı şərəflə təmsil edib.

Faiq Rəcəbov 1952-1957-ci illərdə Azərbaycan yığma komandasının üzvü kimi SSRİ çempionatlarında, SSRİ Xalqlarının Spartakiadasında, Zaqafqaziya və Moldova Respublikaları arasında keçirilən yarışların iştirakçısı olub.

İdman gimnastikası üzrə SSRİ idman ustası olan Faiq Rəcəcov 1980-1990-cı illərdə Azərbaycan Gimnastikası Federasiyasının prezidenti, 1994-1997-ci illərdə Milli Olimpiya Komitəsinin baş katibi və Avropa Olimpiya Komitəsinin Texniki Komissiyanın üzvü kimi fəaliyyət göstərib. Azərbaycan, rus, ingilis, ərəb, fransız və türk dillərini mükəmməl bilən gimnastımızın iki övladı, dörd 4 nəvəsi var.

Azərbaycanın Gimnastika Federasiyası və Gimnastika Veteranlar Şurası Faiq Rəcəbovu 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona bundan sonra da gümrah və sağlam olmağı arzulayır.

Stolüstü tennis




## Ölkə çempionatının yeni qalibləri müəyyənləşib

Fevralın 20-23-də “Şüa” İdman - Sağlamlıq Kompleksində stolüstü tennis üzrə Azərbaycan çempionatı keçirilib. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə 5 mart - Bədən Tərbiyəsi və İdman Gününə həsr olunub. Çempionatda Bakı, Sumqayıt, Şəki, Şirvan, Salyan, Gədəbəy, Samux və digər rayonlardan 120-dən çox idmançı mübarizə aparıb. Maraqlı mübarizə şəraitində keçən yarışda kişilərin mübarizəsində komanda hesabında birinci yeri “Bakı II”, qadınların yarışında isə “Bakı I” kollektivləri qalib adını qazanıb. Qarışıq qoşa yarışlarında Yusif Qafarlı-Nəzakət Qarayeva cütlüyü fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Kişilər arasında qoşa yarışlarda Əliverdi Şahgəldiyev və Nurlan Həsənov, qadınlarda isə Məryəm İmanova və Şərmin Şirinova qızıl medala layiq görülüblər.

Şəxsi yarışlarda Ramil Cəfərov və Nəzakət Qarayeva müvafiq olaraq, kişilər və qadınlar arasında mübarizədə qalib gələrək Azərbaycan çempionatının qalibi olublar.

Xəbərlər

### Təmsilçimiz Misirdə fərqlənib

Paytaxt Qahirədə uşaqlar arasında taekvondo üzrə Misir kuboku keçirilib. Bu yarışda ölkəmizi 10 yaşlı həmyerlimiz Sumeyra Xəlilova təmsil edib. Uğurla çıxış edən həmyerlimiz bürünc medal qazanıb. Soydaşımız buna qədər Qahirə şəhəri üzrə bir çox yarışlarda qalib gəlsə də bu, onun ən böyük uğurudur.

### Azərbaycan və İran yeniyetmələrinin spartakiadası keçirilib

İranın Astara şəhərində Azərbaycan və İran yeniyetmələri arasında taekvondo, karate və cüdo idman növləri üzrə spartakiada keçirilib.

Astaranın İnqilab İdman Kompleksində keçirilən spartakiadada hər üç növ üzrə 500 atlet iştirak edib.

İranın Astara şəhərinin idman və gənclər idarəsinin direktoru Vahid Xasipur bildirib ki, taekvondo yarışlarında İranın Astara, Azərbaycanın Lənkəran, eləcə də Ənzəli şəhərinin “Qayeqran” komandaları müvafiq olaraq, ilk üç yeri tutublar.

Cüdo yarışlarında “Gilan-əlef”, “Əlborz-əlef” və Azərbaycan təmsilçiləri müvafiq olaraq fəxri kürsüdə qərarlaşıblar.

Karate yarışlarında isə İranın Astara yığması və Bakının seçmə komandası birinci-ikinci yerləri bölüşdürüblər.

Əlbəyaxa döyüş növləri

## Avrasiya kubokunda 5 qızıl, 2 gümüş medal əldə olunub

Fevralın 25-də Tbilisidə WK-1 idman növü üzrə Avrasiya çempionatında peşəkar və həvəskar idmançıların yarışı keçirilib. Azərbaycan idmançısı Murad Babayev 71 kq çəki dərəcəsində Gürcüstan idmançısı Qote Qureşidze ilə qarşılaşıb. Rəqibinə heç bir şans verməyən idmançımız Avrasiya kubokunun qalibi olub.

Peşəkar rinqdə mübarizə aparan digər idmançılarımız Babək Qəmbərov və Sənan Qasımov isə çempionatın gümüş medallarına sahib olublar. Avrasiya çempionatında həvəskarlar arasında keçirilən yarışda isə Azərbaycanın dörd idmançısı qızıl medala layiq görülüb.



### Badmintonçumuz Avropa çempionatında yarışacaq

Aprelin 24-29-da İspaniyanın Huelva şəhərində badminton üzrə Avropa çempionatı keçiriləcək. Milli komandamızın üzvü Orxan Qələndərov həmin yarışa vəsiqə qazanıb.



Qeyd edək ki, badmintonçumuz son açıqlanan reytinq siyahısına əsasən, çempionatda çıxış etmək şansı əldə edib.

Atçılıq



## “Arzu” kubokuna yekun vurulub

Binə Atçılıq Mərkəzinin qapalı manejində atçılığın konkur növü üzrə “Arzu” kuboku turniri təşkil olunub.

Turnirin ilk günündə “E” (80-85 sm) və “M*” (120-125 sm) kateqoriyaları üzrə yarışlar keçirilib. “E” kateqoriyası üzrə yarışda “Sərhədçi” klubunun idmançısı Dünyamalı Qurbanbəyov “Wasab I” ləqəbli atla birinci yerə yüksəlib. Atçılıq məktəbinin idmançısı Rüstəm Hümbətov “Carry Sanders” ləqəbli atla ikinci, “Omar” klubunun təmsilçisi Nurlan Rüstəmov isə “Emily Du Barbour” ləqəbli atla üçüncü pillədə qərarlaşıb.

“M*” kateqoriyası üzrə yarışda ilk pilləyə “Sərhədçi” klubunun idmançısı Seyid Musayev “Cissy” ləqəbli atla yüksəlib. Turnirdə “Murad” klubunun idmançısı Kərim Abdullayev “Clima” ləqəbli atla gümüş medala layiq görülüb. “Elite” klubunun çaparı Elmar Abdullayev isə “Cera 59” ləqəbli atla bürünc medalla kifayətlənməli olub.

Yarışın ikinci mərhələsində “S*” (130-140 sm) kateqoriyası üzrə təşkil olunan mübarizədə hər yaş qrupundan idmançılar iştirak ediblər. Bu kateqoriya üzrə birinci yerin və “Arzu” kubokunun qalibi “Concorde 57” ləqəbli atla “Sərhədçi” klubunun idmançısı Seyid Musayev olub. İkinci yerə “Omar” klubunun təmsilçisi Ələkbər Məmmədov “AFPS Chantal 261” ləqəbli atla, üçüncü pilləyə isə Murad Klubunun idmançısı Kərim Abdullayev “Clima” ləqəbli atla yüksəlib.

İkigünlük turnirin ümumi mükafat fondu 5000 manat olub.

### Pankration, qrapling və MMA üzrə qaliblər məlum olub

Hövsan Olimpiya İdman Kompleksində pankration, qraplinq və MMA idman növləri üzrə açıq Bakı birinciliyi və çempionatı keçirilib.

Yeniyetmələr, gənclər və böyüklər arasında təşkil olunan yarışda 300-dən artıq idmançı qüvvəsini sınayıb. “Neftçi İdman Klubu”nun təmsilçiləri 7-si qızıl, 5-i gümüş və 14-ü bürünc olmaqla paytaxt yarışının 26 medalına yiyələniblər.

Pankration yarışlarında Elçin Bəşirov (27 kq) və Roman Mənsimzadə (73 kq) yeniyetmələr arasında liderliyə yüksəliblər.

Qraplinq idman növündə İbrahim Nəcəfov (84 kq) gənclər, Seymur Quliyev (92 kq) və Aqil Xəlilli (100 kq) isə böyüklər arasında qalib adını qazanıblar.

MMA yarışlarında 50 kq çəki dərəcəsində mübarizə aparan Rahib Mustafayev yeniyetmələr arasında qızıl medala sahib olub. Elvin Əlizadə (92 kq) isə gənclərin mübarizəsində eyni uğuru təkrarlayıb.

# “Qarabağ” rəqiblərindən uzaqlaşdı



Topaz Premyer Liqasında XVII tura yekun vurulub. Turun bütün görüşləri Bakıda təşkil olunub. Lider “Qarabağ” çətinliklə qələbə qazansa da, ikinci pillədəki “Qəbələ” vacib 3 xal itirib.

İlk oyun günü iki matç keçirilib. “Səbail” evdə “Qəbələ” klubu ilə münasibətlərinə aydınlıq gətirib. 6 oyundur uduzmayan qonaqlar liderlə xal fərqini azaltmaq üçün debütantla matçı itkisiz başa vurmaq istəyirdi. Bu mövsüm tərəflər arasında təşkil olunan hər iki matç 3:1 hesabı ilə Qəbələ təmsilçisinin xeyrinə başa çatmışdı. Roman Qriqorçukun yetirmələrinin bu dəfə qələbə arzusu reallaşmayıb. “Səbail” gözlənilmədən

## *“Sumqayıt” isə növbəti qələbəsini qazandı*

“Qəbələ”yə qalib gələrək, rəqibinə çempionluq yolunda ciddi zərbə vurub.

“Neftçi” doğma azarkeşlər önündə “Zirə” klubunu sınağa çəkib. Avrokuboklara iddialıların paytaxt derbisinə hər iki komanda ötən turun məğlubiyyətini unutdurmaq üçün çıxmışdı. Zirəlilər “Qəbələ”nin məğlubiyyətindən yararlana bilməyiblər. Son dəqiqələri azlıqda keçirən “Zirə” meydandan 1 xalla ayrılmağa nail olub. Tərəflər hərəyə bir dəfə fərqləniblər. 9 oyundur meydanı qolsuz tərk etməyən “Zirə” yenə bu seriyanı davam etdirib.

Son oyun günü digər iki matç təşkil olunub. “Keşlə” ilə “Sumqayıt” klubları “İnter Arena”da qarqılaşıblar. Görüş qonaqların 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Tura liderin oyunu ilə yekun vurulub. Ardıcıl 5-ci çempionluq üçün mübarizə aparan “Qarabağ” evdə “Kəpəz” klubunu sınağa çəkib. 6 matçdır xala həsrət qalan qərblilərin uğursuz seriyası bu dəfə də davam edib. “Qarabağ” matçın sonuna 5 dəqiqə qalmış vurduğu qolla növbəti 3 xalı qazanıb.

Beləliklə, Ağdam təmsilçisi qələbə qazanaraq ən yaxın izləyicisi “Qəbələ”ni 9 xal qabaqlayır.

### *Topaz Premyer Liqası*

*XVII tur*

**24 fevral**

“Səbail” - “Qəbələ” - 2:1

**Qollar:** Vitali Vernidub, 25 (öz qapısına); Fəhmin Muradbəyli, 56 - Baqali Dabo, 68.

“Neftçi” - “Zirə” - 1:1

**Qollar:** İqnasio Errera, 22 - Evans Uilyams, 30.

**25 fevral**

“Keşlə” - “Sumqayıt” - 1:2

**Qollar:** Rail Məlikov, 12 (öz qapısına) - Tural Axundov, 3 (pen.), Rəşad Eyyubov, 90.

“Qarabağ” - “Kəpəz” - 1:0

**Qol:** Mahir Mədətov, 85.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Qarabağ | 17 | 14 | 2 | 1 | 27-6 | 44 |
| 2. Qəbələ | 17 | 11 | 2 | 4 | 31-17 | 35 |
| 3. Zirə | 17 | 9 | 5 | 3 | 26-15 | 32 |
| 4. Sumqayıt | 17 | 8 | 3 | 6 | 22-19 | 27 |
| 5. Neftçi | 17 | 6 | 2 | 9 | 19-19 | 20 |
| 6. Səbail | 17 | 5 | 2 | 10 | 12-24 | 17 |
| 7. Keşlə | 17 | 3 | 3 | 11 | 12-27 | 12 |
| 8. Kəpəz | 17 | 2 | 1 | 14 | 10-32 | 7 |

# Avropa Liqasında erkən final

***Ötən həftə UEFA Avropa Liqasında 1/8 final mərhələsinin püşkü atılıb. 1/16 final mərhələsini adlayan komandalar İsveçrənin Nyon şəhərindəki tədbirdə 8 cütlük təşkil edib.***

UEFA-nın mənzil-qərargahındakı mərasimdə kor püşkə üstünlük verilib. İştirakçılar eyni ölkəni təmsil etmələrindən və reytinqindən asılı olmayaraq bir səbətdən çıxarılıb.

Rusiyadan 3, İspaniya, İtaliya, Almaniya və Fransanın hərəsindən 2 klubun mübarizə aparacağı mərhələdə Ukrayna, Çexiya, Portuqaliya, Avstriya, İngiltərənin 1 komandası oynayacaq.

Şübhəsiz ki, mərhələnin ən maraqlı oyunu “Milan” - “Arsenal” komandaları arasında olacaq. Futbol mütəxəssisləri bu matçı erkən final da adlandırırlar.

Qeyd edək ki, 1/8 final mərhələsinin ilk oyunları martın 8-də, cavab qarşılaşmaları 15-də təşkil olunacaq.

### *UEFA Avropa Liqası*

**1/8 final mərhələsi**

“Latsio” (İtaliya) - “Dinamo” (Kiyev, Ukrayna)
“Leypsiq” (Almaniya) - “Zenit” (Rusiya)
“Atletiko” (İspaniya) - “Lokomotiv” (Rusiya)
MOİK (Rusiya) - “Lion” (Fransa)
“Marsel” (Fransa) - “Atletik” (İspaniya)
“Sportinq” (Portuqaliya) - “Viktoriya” (Çexiya)
“Borussiya” (Dortmund, Almaniya) - “Zalsburq” (Avstriya)
“Milan” (İtaliya) - “Arsenal” (İngiltərə)

***Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi***

# Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl nümunədir

***Tanrı Azərbaycandan heç nəyi əsirgəməyib. Ölkəmizin yeraltı və yerüstü sərvəti Yaradanın xalqımıza bəxş etdiyi tükənməyən sərvətdir. Tarixin keşməkeşlərinə vüqarla sinə gərən Azərbaycan xalqı özünün mədəni zənginliyi ilə qürur duyur.***

***Çağdaş Azərbaycan multikulturalizm məkanı kimi dinlərin müxtəlifliyini vahid harmoniyada birləşdirən unikal ölkəyə çevrilib. Bu harmoniya respublikamızda yaşayan hər bir etnik qrupun, xalqın ümummilli həmrəyliyinə xidmət edir. Azərbaycanda yaşayan xalqlar üçün dini və milli tolerantlıq mənəvi keyfiyyətlərin daşıyıcısıdır. Burada ayrı-ayrı inancları özünün mənəvi qidası hesab edən insanların əsrlər boyu əmin-amanlıq şəraitində yaşamasını bəşəriyyətə sülh çağırışı kimi dəyərləndirmək olar.***

> ***“Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməyib, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Azərbaycanda milli və dini dözümlülük, yüksək tolerantlıq bizim güc mənbəyimizdir”.***
>
> ***İlham Əliyev***

## “Tolerantlıq təkcə dinlərin bir-birinə dözümlüyü deyil”

Müstəqillik dövründə xalqımızın öz kökünə qayıdışı tolerantlığa, islami dəyərlərə daha böyük üstünlük verilməsinə, adət-ənənələrimizin bərpasına və cəmiyyətin əxlaqi-mənəvi yüksəlişinə zəmin yaratdı. Bu ali dəyərlərin qorunması dövlət siyasətinin prioritet istiqamətinə çevrildi. Tolerantlıq, ümummilli lider Heydər Əliyevin zəngin təcrübəsindən qaynaqlanan düşünülmüş addımlar sayəsində “mədəniyyətlərin, dinlərin birgə yaşayışı” statusunu bərpa etdi.

Ulu öndər geniş məna tutumuna malik olan tolerantlıq termininə lakonik izah verərək demişdir: “Tolerantlıq həm insani münasibət və cəmiyyətdə gedən proseslərin, həm də dövlətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. Tolerantlıq təkcə dinlərin bir-birinə dözümlüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına, mədəniyyətlərinə dözümlülük deməkdir”.

Ümummilli liderin miras qoyduğu bu siyasəti onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Ölkə prezidentinin milli-mənəvi dəyərlərimizə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması ölkədə güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirib. Azərbaycanı nəinki regionda, bütövlükdə dünyada multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun əsas mərkəzlərindən birinə çevrilib. Bu gün tolerantlıq Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Azərbaycan dinlər arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl nümunədir. Dünya Dini Liderlərinin Ümumdünya Sammiti (2010-cu il) və BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun (2016-cı il) Bakıda keçirilməsi bunu bir daha təsdiqləyir.

Qeyd edək ki, 33 ölkənin iştirak etdiyi Sammitin iştirakçıları arasında bütün ermənilərin katalikosu II Qoreginin də yer alması dini dözümlülüyün təcəssümü idi. Həmin tədbirdə çıxış edən Prezident İlham Əliyev ölkəmizdə müxtəlif dinlərin mövcud olmasını, millətlərin əsrlər boyu birgə yaşadığını, dini azlıqların hüquq və azadlıqlarının qorunduğunu vurğulamışdı.

## Azsaylı xalqlar özlərini Azərbaycanda yad hiss etmirlər

Uzun illərdir ki, ölkəmizdə müxtəlif dinə etiqad edən xalqlar azərbaycanlılarla çiyin-çiyinə yaşayırlar. Bu xalqların monolit birliyi Azərbaycan tolerantlığı ilə vəhdət təşkil edir. Tolerantlıq ölkənin (xalqın) mənəvi zənginliyi deməkdir. Bu baxımdan Azərbaycan zəngin ölkədir. Azərbaycan dövlətinin, xalqımızın dini və etnik tolerantlığı barədə müxtəlif səpkili yazılar yazılıb, televiziya verilişləri hazırlanıb, Azərbaycan tolerantlığı beynəlxalq konfransların müzakirə mövzusuna çevrilib. Respublikamızda etnik və dini mənsubiyyətinə görə fərqlənən xalqların məskunlaşması zənginliyimizin, tolerantlığımızın bariz nümunəsidir. Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (01.09.2009-cu il) sonra 793 dini qurum qeydiyyatdan keçib. Konfessional baxımdan onların 765-i İslam, 28-i isə qeyri-islam (xristian - 17; yəhudi - 8; krişna - 1; bəhai - 2) təmayüllüdür. Hazırda ölkəmizdə 14 kilsə və 7 sinaqoq fəaliyyət göstərir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkəmizdə əhalinin təxminən 90 faizini azərbaycanlılar təşkil edir. Bundan başqa, ölkənin ayrı-ayrı bölgələrində talışlar, ləzgilər, ruslar, kürdlər, tatlar, yəhudilər, udinlər məskunlaşıblar. Say tərkibinə görə daha az olan ingiloylar, xınalıqlılar, lahıclar, qırızlar, rutullar, kilitlilər də qədim yurdumuzun qədim sakinləridir. Bu etnik toplumlar özlərini Azərbaycanda yad hiss etmirlər. Əsrlərdən bəri davam edən birgə yaşayış, qarşılıqlı münasibət, dilə, dinə, adət-ənənələrə göstərilən ehtiram bu xalqların qaynayıb-qarışmasına zəmin yaradıb. Dağ Yəhudiləri dini icmasının sədri, “Şöhrət” ordenli Milix Yevdayevin bu məsələyə münasibəti təqdirəlayiqdir. O, çıxışlarının birində bunları deyib: “Azərbaycan həmişə müxtəlif xalqların, millətlərin və dinlərin birgə yaşadığı, mədəniyyətlərin qovuşduğu tarixi məkan olmuşdur. Ölkədə bütün azsaylı xalqlara, dinlərə, millətlərə qarşı yüksək mədəniyyət nümayiş etdirilir. Azərbaycanda olduğu qədər tolerant mühitin formalaşdığı ikinci belə bir dövlət tanımıram. Ölkəniz öz müsbət nümunəsi ilə müsəlmanların, yəhudilərin və xristianların sülh və qarşılıqlı hörmət şəraitində dinc yanaşı yaşamaq imkanlarını sübuta yetirir. Yəhudilərin Azərbaycanda məskunlaşmasının 2000 ildən çox tarixi var. Azərbaycanlılarla yəhudilər arasında dostluq və tolerant münasibət olmasaydı, biz burada dinimizi, adət-ənənələrimizi saxlaya bilməzdik. Bizim bu dostluğumuzu, Azərbaycandakı tolerantlıq mühitini heç bir qüvvə poza bilməz”.

Etnik qrupların mərd oğulları vətənin dar günündə biganə qalmayıb, azərbaycanlılarla əl-ələ verib, çiyin-çiyinə dayanıblar. Qarabağ uğrunda savaşda şücaət göstərərək Azərbaycan Prezidenti tərəfindən Milli Qəhrəman adına layiq görülənlər arasında rus (Yevgeni Korlov, İqor Makiyev), yəhudi (Albert Aqoronov) və digər xalqların nümayəndələrinin olması təsadüfi deyil.

## Üç müxtəlif dinin dinc yaşadığı nadir ölkə

Hazırda Avropa qitəsində islamafobiya düşüncəsi pik həddə çatıb. Yaxın Şərq ölkələrinin əksəriyyətində məzhəb savaşı tüğyan edir. Belə bir zamanda Azərbaycanda dini və milli tolerantlığın qorunması, həmçinin inkişafı üçün atılan addımlar hər birimizi sevindirir. Dövlət tərəfindən düşünülmüş şəkildə həyata keçirilən işlər dini sabitliyin qorunmasında mühüm əhəmiyyət kəsb edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı respublikadakı dini konfessiyalara dövlət qayğısından danışkən Azərbaycanda dövlət-din münasibətləri normal məcrada inkişaf etdiyini vurğulayıb: “Pravoslav və katolik kilsələri, si-



naqoqlar, Atəşgah məbədi - bütün bunlar Azərbaycanın mədəni irsinin tərkib hissəsidir. Bütün dini qurumlara, o cümlədən qeyri-müsəlman dini icmalara dövlət tərəfindən mütəmadi maliyyə yardımı göstərilir. Ölkəmizdə istənilən dini icmanın azad fəaliyyətinə tam şərait var. Azərbaycan tolerantlıq baxımından dünyanın ən qabaqcıl ölkələri sırasındadır”.

Azərbaycanda dini görüşlərinə görə heç kimə təzyiq göstərilmir. Əksinə, ölkəmizdə Multikulturalizm mərkəzi yaradılıb, əhalini bu istiqamətdə maarifləndirmək üçün Bilik Fondu təsis edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı ilin “Multikulturalizm ili” elan edilməsi bir daha göstərdi ki, dini-milli tolerantlığın inkişafı dövlətimizin önəm verdiyi mühüm məsələdir.

Azərbaycan tolerantlığı Avropanın da diqqətini cəlb edib. Artıq avropalılar Azərbaycanda olan bu unikal modelin təcrübəsini öyrənirlər. İtaliyanın paytaxtı Roma şəhərində “Müsəlman ölkəsində müxtəlif dinlərin yanaşı mövcudluğu: Azərbaycan təcrübəsi” adlı beynəlxalq konfransın keçirilməsi ölkəmizdə bu sahədəki mövcud vəziyyətin reallığını əks etdirir. Konfransda Azərbaycanın müxtəlif dinlərin birgə mövcudluğu sahəsində böyük təcrübəyə malik olması, həmçinin bu təcrübənin öyrənilməsinin vacibliyi xüsusi vurğulanıb. Təkcə Avropa deyil, Qərbin dini liderləri də Azərbaycanın dini tolerantlıq baxımından örnək götürüləcək bir ölkə olduğunu etiraf edirlər. 2002-ci ildə Bakıya səfər edən dünya katoliklərinin mərhum lideri, Roma papası II İohan Pavel Azərbaycanı “üç müxtəlif dinin dinc yaşadığı nadir ölkə” adlandırıb. “Azərbaycanda dini dözümlülük baxımından sabit cəmiyyət mövcuddur. Qoy üç böyük din tərəfindən izhar edilmiş bu məhəbbət şahidliyinə görə Allaha həmd olsun”, - deyə Roma papası bildirib. Onu da deyək ki, Azərbaycan əhalisinin cəmi 0,5 faizini katoliklər təşkil edir. Dünya katoliklərinin dini liderinin məhz belə bir ölkəyə səfər etməsi Azərbaycanda məskunlaşan azsaylı xalqların dininə xoş münasibətin dönməzliyindən xəbər verir. Xatırladaq ki, Azərbaycan yeganə İslam ölkəsidir ki, bu ölkənin mədəni irsi Vatikanda nümayiş etdirilib.

## Bakının mərkəzindəki erməni kilsəsi bu gün də qalmaqdadır

Azərbaycan xalqı ona pənah gətirən hər kəsdən üz döndərməyib. Pənah gətirən erməni də olsa, xalqımız özünəməxsus insanı keyfiyyətlərə sadiq qalıb. Lakin azərbaycanlıların bir vaxtlar dost bildiyi ermənilər xalqımıza qarşı hər zaman düşmən münasibəti göstərib. Əsli, kökü, tarixi olmayan ermənilərin törətdikləri dəhşətli qırğınlar minlərlə soydaşımızın həyatına son qoydu. Bütün bunlara baxmayaraq, Azərbaycanı ümid yeri bilərək ölkəmizə pənah gətirən erməni ailələrinə (2010-cu ildə Gevorkyanlar, 2015-ci ildə Martirosyanlar ailəsi), ordudakı dözülməz vəziyyətə görə ölkəmizə üz tutan erməni hərbçilərinə sığınacaq verilib. Hətta Martirosyanlar ailəsi Azərbaycan vətəndaşlığını qəbul etmək üçün dövlət başçısı cənab İham Əliyevə müraciət ünvanlayıblar. Bu, hər cür xəyanəti, nankorluğu unutmağı bacaran (“unutqan” ifadəsi ilə səhv salmayın - R.S.) Azərbaycan xalqının tolerantlığının, dözümlülüyünün əyani ifadəsidir. Lakin erməni xisləti, erməni nankorluğu “haylar”ın qanındadır. Onlar xalqımızı dünyaya qeyri-tolerant, qəddar xalq kimi təqdim etmək üçün bütün çirkin yollara əl atırlar. Amma unudurlar ki, tolerant, çoxmillətli Azərbaycandan fərqli olaraq, Ermənistan əhalisinin 99 faizi ermənilərdən ibarət olan monomilli dövlətdir. Hazırda qədim İrəvan xanlığı ərazisində bir nəfər belə azərbaycanlı yaşamır. Azərbaycanda (xüsusilə Bakıda) isə 20 min erməni rahat şəkildə ömür sürür. Bakının mərkəzində erməni kilsəsi bu gün də qalmaqdadır. Düzdür, həmin kilsə ibadət yeri kimi fəaliyyət göstərmir, amma buranın eksponatları, kitablar qorunur. Digər millətlərin dininə, mədəniyyətinə bu cür yanaşma tolerantlığın ən yüksək zirvəsi deyilmi?

Tanrı Azərbaycana hər şey verib: bol sərvət, bərəkətli torpaq, halal zəhməti hər şeydən uca tutan mehriban, qonaqpərvər, səxavətli insanlar. Təbii sərvətlərimiz nə vaxtsa tükənə bilər. Amma yaddaşımızda, düşüncəmizdə qranit möhkəmliyi ilə kök salan tolerantlıq, tarix boyu digər xalqların dəyərlərinə göstərdiyimiz xoş münasibət isə heç vaxt tükənməyəcək.

***Rahib Səmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# DÜNYA idmanı



## Son sözü Meyvezer deyəcək



Floyd Meyvezerin atası və məşqçisi oğlunun MMA-nın döyüşlərində iştirakının əleyhinə olduğunu bildirib.

"Ola bilər ki, oğlum özünü qarışıq döyüş növlərində sınamaq istəyir. Meyvezerin bundan sonrakı həyatı üçün kifayət qədər pulu var. Bir sözlə, onun qonorara ehtiyacı yoxdur.

Mən oğluma MMA-da döyüşməyi məsləhət görmürəm. Bir ata, bir məşqçi kimi buna "yox" deyirəm. Amma son söz yenə onundur", - deyə ata Meyvezer bildirib.

## 10 yaşlı uşaqdan döyüş çağırışı



10 yaşlı Qazaxıstan məktəblisi Abay Tajibay instaqram hesabı vasitəsilə Çeçenistan prezidenti Ramzan Kadırovun oğullarını döyüşə çağırıb. Abay Tajibay kikboksink idman növü üzrə ikiqat Astana çempionudur. O, Ramzan Kadırovun oğlanları ilə rinqə çıxmaq üçün döyüş növləri ilə məşğul olmağa başlayıb.

Abay Tajibayın ailəsi hazırda Almatıda yaşayır. O, döyüşə çıxmaq üçün gərgin məşqlər edir.

Məlumat üçün bildirək ki, Ramzan Kadırovun oğlanları Adam və Ahmat Rusiyada peşəkar uşaq idmanı üzrə MMA kəmərinə sahib olan yeganə idmançılardır.

## *Fernando Alonso Formula-1-i tərk edir?*

Formula-1 yarışları üzrə ispaniyalı pilot Fernando Alonso WEC seriyasından rallidə hansı səbəbdən iştirak etmək istədiyinin səbəblərini açıqlayıb.

"Formula-1-də uzun müddətdir yarışan biri kimi deyə bilərəm ki, bir gün dayanmalı olacağam. Mən yarışı sevirəm. Niyə də gözəl olanı faydalı olanla birləşdirməyim? Bu səbəbdən WEC yarışları mənim tələblərimə cavab verir. Burada yarış cədvəli Formula-1-də olduğu kimi gərgin deyil. Beləliklə, mən həm də şəxsi həyatıma da vaxt ayıra biləcəyəm", - deyə Alonso söyləyib.



## 8 çəkidə dünya çempionu kimdir?



Tanınmış boksçu Menni Pakyao bu ilin aprelində rinqə çıxacaq. Onun potensial rəqibi ABŞ boksçusu Mayk Alvarado olacaq. Döyüşün aprelin 14-də Las-Veqasda təşkil olunacağı gözlənilir.

Xatırladaq ki, Menni Pakyao sonuncu dəfə rinqə 2017-ci ilin iyul ayında çıxıb. Bu döyüşdə o, avstraliyalı Ceffi Horna xal hesabı ilə uduzub. Ümumilikdə, Filippin idmançısının hesabında 59 qələbə, 7 məğlubiyyət, 2 heç-heçə var. Menni Pakyao dünyada 8 çəki dərəcəsi üzrə dünya çempionu olan yeganə boksçudur.

## Denni Qarsia mütləq çempion olub

Boks üzrə iki çəki dərəcəsində sabiq dünya çempionu Denni Qarsia Ümumdünya Boks Şurasının (WBC) versiyası üzrə mütləq dünya çempionu (66, 68 kq-a qədər çəki dərəcəsi üzrə) tituluna yiyələnib. Bu qələbəyə o, Las-Veqasda Brendon Riosla keçirilən qarşılaşmanın 9-cu raundunda nail olub. Beləliklə, Denni Qarsianın hesabında hazırda 34 qələbə (20 nokaut) və 1 məğlubiyyət var.

Brendon Rios üçün isə bu, dördüncü məğlubiyyətidir. Onun hesabında indiyə kimi 34 qələbə (25 nokaut), 1 heç-heçə var.



*"Olimpiya dünyası" qəzetinin arxivindən*

("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)

## "Buna hazır deyiləm"



NBA-nın "Seltik" klubunun əfsanəvi idmançısı Neyt Arçibald bir ildən artıqdır ki, sağalmaz xəstəliklə mübarizə aparır.

Bu haqda basketbolçu özü danışıb: "Adi qan analizi vermək üçün həkimə getdim. Xəstəxanadan çıxanda şokdaydım. Analizlərin nəticəsi göstərirdi ki, mənim ürəyim həddindən artıq tez və sürətlə döyünür, çünki burada tıxac yaranıb. Həkimlər nadir xəstəlik olduğunu deyirlər. Heç bir müalicə kömək etmir. Ürəyim hər dəqiqə fəaliyyətini dayandıra bilər. Mən isə buna hazır deyiləm. Hələ yaşamaq istəyirəm...".

## 20 yaşında tarixə düşdü



20 yaşlı yarımmüdafiəçi Cengiz Ünder Çempionlar Liqasının (ÇL) 1/8 finalında "Şaxtyor"a qarşı matçda hesabı açıb və komandasının yeganə qolunu vurub. Beləliklə, o, ÇL tarixində qol vuran ən gənc türk futbolçu olub.

Qeyd edək ki, bu oyun Cengiz Ünderin oynadığı ilk Çempionlar Liqası matçı olub. Türkiyə millisinin üzvü olan futbolçu "Roma" forması ilə 4 matçda 6 dəfə qol sevinci yaşayıb.

## Çoxbilmiş xizəkçi



Xizəkçi Elizabet Sueyni Pxençxan-2018 Olimpiadası çərçivəsində hafpayp yarışlarında iştirak edir. Hafpayp yarışlarında isə tullanma hərəkətləri böyük rol oynayır. Məsələ də ondadır ki, bu qız yalnız xizək sürməyi bacarır, tullanmağı yox.

Bəs görəsən, Elizabet olimpiadaya necə lisenziya qazanıb? Koreyaya getmək üçün ona müxtəlif beynəlxalq yarışlarda 30-luğa düşmək kifayət edib.

Bu çoxbilmiş qız 25 yaşından xizək sürür. Olimpiadada Macarıstanı təmsil edən Elizabet Sueyni yarış zamanı tryuklardan istifadə etməyib, yəni tullanmayıb. Sadəcə, yarışı xizək sürməklə başa vurub. Hakimlər ona ən aşağı bal - 30 veriblər. Hətta yarışda yıxılan idmançı Elizabetdən daha çox xal alıb - 43 xal.

## *Mariya Şarapova korta apreldə qayıdacaq*

***Rusiyalı tennisçi Mariya Şarapova 2017-ci ildə nə az, nə çox, düz 8 dəfə dopinq testindən keçib. Testlərdən 7-si yarışdan kənar, 1-i isə yarış zamanı qeydə alınıb.***

2016-ci ilin mart ayında tanınmış tennisçinin qanında meldoniya, yəni qadağan olunmuş preparat aşkar edilib. Beynəlxalq Tennis Federasiyası Mariya Şarapovanı buna görə 2 il müddətinə diskvalifikasiya etsə də, Beynəlxalq Arbitraj Məhkəməsi (CAS) cəzanı 15 ayla əvəz edib. İdmançının cəzası bu ilin aprelində bitir.

Məlumat üçüm bildirək ki, qadınlar arasında dünya reytinqində 1-ci olan Karolina Voznyatski isə ötən il 14 dopinq testindən keçib.

Kişi tennisçilər arasında liderlərdən Roje Federerlə, Rafael Nadal da 2017-ci ildə 14-dən artıq dopinq yoxlamasından keçiblər.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.